RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 37 (8630) CÜMƏ AXŞAMI, 18 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev Qarabağa növbəti səfərində də ənənəsinə sadiq qaldı

## Dövlət başçısının xeyir-duası ilə işğaldan azad olunmuş ərazilərdə yeni layihələrin icrasına başlanıldı

**Adətən, Prezident İlham Əliyevin bölgələrə hər səfəri yaddaşlarda həm də mühüm istehsal müəssisələrinin, əhəmiyyətli sosial infrastrukturun, o cümlədən yolların açılışı, yaxud təməlqoyma günü kimi qalır. Dövlət başçısının birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə cari il fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri bu baxımdan istisna təşkil etmədi. Üstəlik, həmin səfərin özəlliyi də vardı.**

Çünki Prezident düşmən tapdağından azad edilmiş bölgələrə gəlmişdi və səfərin məqsədi barədə belə dedi: "Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin".

Tədbirlərdən biri Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması idi. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xətti mühüm strateji əhəmiyyət daşıyacaq, çünki azad edilmiş torpaqlara həm vətəndaşların gəliş-gedişinə, həm də yüklərin aparılıb-gətirilməsinə xidmət edəcək. Eyni zamanda daha bir mühüm məsələ də həllini tapacaq: Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyatı əlaqəsi yaranacaq. Beləliklə, həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək. Həmçinin bu nəqliyyat infrastrukturu Türkiyəyə qədər uzanacaq və Bakı-Tbilisi-Qars dəmir yolundan başqa Azərbaycanı qardaş ölkə ilə birləşdirən ikinci polad magistral şəbəkəsi olacaq. Təsadüfi deyil ki, region ölkələri də bu yolun tikintisinə böyük maraqla yanaşırlar və layihəyə öz müsbət münasibətlərini bildiriblər.

Dövlət başçısı bu layihənin perspektivlərini qeyd edərək dedi: "Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər".

Prezident işğaldan azad edilmiş Zəngilana keçən dəfəki səfərində burada üçrəngli bayrağımızı ucaltdı. Budəfəki səfəri zamanı isə rayonda birinci "ağıllı kənd" layihəsinə start verildi. Ağalı kəndində icra olunacaq bu pilot layihənin həyata keçirilməsi əsasən 5 komponent üzrə aparılacaq. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Ardı 5-ci səh.

# N.Ə.Həsənzadənin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2021-ci il*

# Xalq şairi Nəriman Həsənzadəyə

Hörmətli Nəriman Həsənzadə!

Sizi - müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı və yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Siz ötən əsrin ortalarında ədəbiyyat aləminə qədəm qoyduğunuz vaxtlardan öz dəstxəttinizi formalaşdırmış və geniş oxucu auditoriyasının ehtiramını qazanmısınız. Şair və dramaturq kimi uzunmüddətli səmərəli fəaliyyətiniz boyu yüksək sənətkarlıqla meydana gətirdiyiniz ədəbi əsərlər söz xəzinəmizə layiqli töhfədir. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən bu əsərlər Sizi ədəbi prosesin ön mövqelərinə çıxarmışdır. Bədii-estetik kamilliyi ilə seçilən şeir və poemalarınıza dərin səmimiyyət, həssaslıq və güclü lirizm hakimdir. Dövrün mənzərəsini dolğun canlandıran və xalqımızın mübarizliyinin tərənnümünə çevrilən mənzum tarixi dramlarınız tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmış, teatrlarımızın repertuarında özünəməxsus yer tutmuşdur. Yaratdığınız poetik nümunələrə bəstələnən mahnılar dillər əzbəridir. Ziyalı vətəndaş mövqeyi nümayiş etdirərək ictimai sahədə göstərdiyiniz təqdirəlayiq fəaliyyət kitablarınızdakı fikir və düşüncələrinizi əməli surətdə gerçəkləşdirmək istəyinizin bariz təzahürüdür.

İnanıram ki, Siz vətənpərvərlik ruhu və əxlaqi-mənəvi saflıq aşılayan əsərlərinizlə Azərbaycan oxucusunu bundan sonra da sevindirəcəksiniz.

*Ən xoş arzularla,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2021-ci il*

# Prezidentin təşəbbüsünün icrasında YAP yenə də ön sıradadır





**Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.**

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəmətli qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Elə bunun nəticəsidir ki, şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına hərtərəfli qayğı dünyada nümunə kimi göstərilir. 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailələrinin, yaralanan, zərər çəkən mülki vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət başçısı tərəfindən ardıcıl olaraq fərman və sərəncamlar imzalanıb. Hazırkı dövrə kimi dövlət şəhid ailələri, müharibə əlilləri və bu kateqoriyadan olan digər şəxslərə maliyyə dəstəyinin göstərilməsi, onların mənzillərlə, minik avtomobilləri ilə təminatı, müalicəsi, sosial durumunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Prezidentin tapşırığına uyğun olaraq bu kateqoriyadan olan şəxslər hərtərəfli sosial təminat sistemi ilə əhatə olunublar.

Ardı 3-cü səh.

# 50 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılıb

**Dünyada COVID-19-a yoluxanların sayı 110 milyonu ötüb. Bu təhlükəli virusa yoluxma sayına görə ABŞ, Hindistan və Braziliya ilk sıralarda yer tutub. Digər tərəfdən koronavirusun yeni ştammı da sürətlə yayılmaqda davam edir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Rusiyadakı nümayəndəsi Melita Vuynoviç söyləyib ki, pandemiyanın üçüncü dalğasının baş verməsi də mümkündür: "COVID-19-un üçüncü dalğası isə insanların davranışından asılı olacaq. Hələlik kifayət qədər kollektiv immunitet yoxdur. Ehtiyatlı olmasaq, bəli, üçüncü dalğa mümkündür".

Bir müddət əvvələ qədər əksər ölkələrdə pandemiyaya qarşı karantin rejiminin tətbiqi vasitəsilə mübarizə aparılırdı. Hazırda isə qlobal bəladan qurtulmağın ən effektiv yolu olan vaksinasiya prosesi həyata keçirilir. Azərbaycanda da dövlət hesabına və könüllülük prinsipi ilə yanvarın 18-dən start verilən vaksinasiya prosesi mərhələli şəkildə davam etdirilir. Ölkəmizdə Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur. Bu vaksinin yaratdığı immunitetin minimum müddəti bir ildir. Peyvəndin maksimum müddəti isə hələ təsdiqlənməyib. Tədqiqatlar zamanı peyvəndin təhlükəli təsirləri aşkarlanmayıb.

Artıq ötən gündən respublikamızda 50 yaş və daha yuxarı yaşı olan şəxslərin də COVID-19 xəstəliyinə qarşı vaksinasiyası başlayıb. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatına əsasən, sözügedən şəxslər "randevu.its.gov.az" saytına daxil olaraq, "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürməlidir.

Ardı 6-cı səh.

# Qubadlının Azərbaycanın aqrar-sənaye kompleksinə sanballı töhfələr vermək imkanı var



*Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş bütün rayonlarda bərpa-quruculuq işlərinə başlanıb. Bunun üçün müvafiq dövlət qurumları əvvəlcə elmi araşdırmalar apararaq həmin rayonların müxtəlif sahələr üzrə inkişaf imkanları barədə müəyyən nəticələrə gələrək hesabatlar hazırlayıb.*

## Bu potensialı işə salmaq üçün rayonun kənd təsərrüfatında innovativ texnologiyalardan istifadə ediləcək

Bu çərçivədə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən Qubadlı rayonunun kənd təsərrüfatı sahəsindəki mövcud imkanları da araşdırılıb.

Mərkəzin əməkdaşı Əbdülrəhim Dadaşovun verdiyi məlumata görə, yayı isti, qışı mülayim keçən, geniş örüş-otlaq sahələri olan Qubadlıda sovetlər dönəmində heyvandarlıq geniş inkişaf etmişdi. Eyni zamanda əlverişli iqlimi, məhsuldar torpaqları, bol su ehtiyatları sayəsində rayonda taxıl, tütün, üzüm, meyvə-tərəvəz də yetişdirilir. Məsələn, 1988-ci ilin əkin sahələrinin strukturunda taxıl zəmiləri 83,4, tütün plantasiyaları 14,4, üzümlüklər 1,1 faiz təşkil edirdi.

Rəsmi statistik məlumatlar göstərir ki, tütünçülük rayon əhalisinin üstünlük verdiyi kənd təsərrüfatı sahələrindən olub. Belə ki, 1980-ci ildə Qubadlıda 504 hektar sahədən 1366, 1985-ci ildə 519 hektardan 2070, 1988-ci ildə 589 hektardan 2101 ton tütün götürülmüşdü. 1980-1988-ci illərdə respublika üzrə bu sahənin maksimum məhsuldarlığı 39 sentner olduğu halda, Qubadlı rayonunda 40 sentnerə çatmışdı. Həmin illər rayonda tütün istehsalı respublika üzrə istehsalın 3,6 faizini təşkil etmişdi ki, bu da rayonun daha çox məhsul istehsal etmək imkanlarının olduğunu göstərir.

Ardı 5-ci səh.

# Ermənistanda müxalifət vətəndaş müharibəsinə hazırlaşır

## Keçmiş hərbi xuntanın revanş cəhdi vəziyyəti daha da gərginləşdirir

**Ermənistanda baş verən son proseslər güclü qarşıdurma mərhələsinin başlandığını göstərir. Müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti daha da genişlənir.**

Elə bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd göstərir. Bu günlərdə müxalifətin birləşdiyi və baş nazir Nikol Paşinyanın istefasını tələb edən "Vətənin qurtuluşu hərəkatı"nın liderlərinin növbəti görüşü olub.

"Daşnaksütyun"un nümayəndəsi İşxan Saqatelyan deyib ki, hərəkatın liderləri Vazgen Manukyan, Serj Sarkisyan, Robert Koçaryan, Artur Vanetsyan və digərləri mövcud vəziyyəti, gələcək proqramları müzakirə ediblər. Onlar fevralın 20-də ilk dəfə olaraq böyük mitinq keçirmək niyyətindədirlər.

Proseslər Nikol Paşinyan və müxalifət arasında münasibətlərin daha kəskin xarakter almaqda olduğunu göstərir. Belə görünür ki, qarşıdakı günlər ərzində ölkədə ictimai-siyasi gərginlik artacaq. Çünki müxalifətin vətəndaş müharibəsinə hazırlaşdığı nəzərlərdən yayınmır. Vəziyyəti gərginləşdirən başqa bir səbəb isə Paşinyana qarşı olan qüvvələrin bir qisminin sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryan ətrafında birləşməsi, sonuncuların isə yenidən hakimiyyətə iddialı olmalarıdır.

Bütün bunların fonunda Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan sabiq prezident S.Sarkisyanı növbəti dəfə ifşa edib. Bildirib ki, 2016-cı ildə Aprel müharibəsi Sarkisyanın xahişi ilə dayandırılıb. O, Rusiya vasitəsilə Azərbaycan Prezidenti İlham Əliyevə vəd verib ki, işğal altındakı rayonların boşaldılmasına dair qrafiki təsdiq edəcək.

Ardı 7-ci səh.

# Milli Məclisin sədri Sahibə Qafarova İran parlamentinin nümayəndə heyəti ilə görüşüb

**Fevralın 17-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İran İslam Respublikası İslam Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctaba Zünnurinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Sədr qonaqları səmimi salamlayaraq bildirib ki, Azərbaycan və İran dost və qardaş ölkələrdir. Ortaq tarixi, mədəni və dini dəyərlərimiz münasibətlərimizin qarşılıqlı anlaşma əsasında inkişafı üçün yaxşı zəmin yaradır. İnanıram ki, bu möhkəm təməl üzərində əlaqələrimiz gələcəkdə daha da genişlənəcək. İran ilə hərtərəfli əməkdaşlığın dərinləşməsi xalqlarımızın ümumi mənafelərinə xidmət edir.

Milli Məclisin sədri qeyd edib ki, münasibətlərimizin bu səviyyəyə çatmasında Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub. Bu siyasət bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçılarımızın qarşılıqlı səfərləri, aparılan danışıqlar, ölkələrimiz arasında imzalanmış sənədlər əlaqələrimizin bugünkü səviyyəyə çatmasında əsaslı rol oynayıb. Siyasi dialoqun ardıcıl xarakter alması iqtisadi, humanitar, mədəni sahələrə də öz müsbət təsirini göstərir. Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyəti, keçirilən biznes forumlar və ikitərəfli görüşlər ticarət dövriyyəsinin artmasına şərait yaradır.

Ölkələrimizin ali qanunvericilik orqanları arasında mövcud olan xoş münasibətlər ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıqda özünü büruzə verir. Sədr hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Bildirilib ki, bu qruplar arasındakı təmasların intensivləşdirilməsi, beynəlxalq parlament təşkilatları çərçivəsində çoxtərəfli əsasda görüşlər ümumi hədəflərə çatmaq baxımından önəmlidir.

Sədr İranın Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsi dönəmində ölkəmizin haqq işini dəstəkləməsini yüksək dəyərləndirib, bu ölkənin daim Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiyi üçün öz adından və Azərbaycan parlamenti adından İran xalqına və dövlətinə təşəkkürünü ifadə edib. Bildirilib ki, erməni işğalçılarının azad olunmuş Azərbaycan ərazilərində törətdikləri vəhşiliklər, dini abidələrə münasibətdə etdikləri hərəkətlər insanlığa yaraşmayan vandallıqdır. Bu, təkcə Azərbaycana qarşı deyil, bütün müsəlman dünyasına qarşı yönəlmiş mənəvi terrordur. Sahibə Qafarova erməni vandallığının digər bir sübutunun da yaxın günlərdə 29 illiyini qeyd edəcəyimiz Xocalı soyqırımı olduğunu qonaqların diqqətinə çatdırıb. Qeyd edib ki, bu soyqırımı aktı dinc və silahsız insanlara qarşı törədilmiş misilsiz bir qətliam olub. Sədr həmçinin diqqətə çatdırıb ki, bu qətliama dünyanın bir sıra parlamentləri lazımi qiyməti verib, soyqırımı olaraq tanıyıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İran İslam Respublikası İslam Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctaba Zünnuri səfər çərçivəsində keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. O bildirib ki, təmsil etdiyi ölkə Azərbaycan ilə həyatın ən müxtəlif sahələrində əlaqələrin dərinləşməsində maraqlıdır. Dağlıq Qarabağda Azərbaycanın apardığı Vətən müharibəsi zamanı İran vətəndaşlarının ürəyi Azərbaycanla birlikdə döyünüb. Biz Azərbaycanın ərazi bütövlüyünü, onun haqq işini həmişə dəstəkləmişik. 44 günlük hərbi əməliyyatlar zamanı ən müxtəlif səviyyələrdə verilən bəyanatlar bunu bir daha təsdiqləyir.

Qonaq Azərbaycanın erməni işğalından azad olunmuş ərazilərinin minalardan təmizlənməsində, bərpa işlərində, dini abidələrin yenidən qurulmasında İran tərəfinin yaxından iştirak etmək arzusunu bildirib. Qeyd edilib ki, Qarabağın yenidən dirçəlməsinə onun ölkəsi də öz layiqli töhfəsini vermək niyyətindədir.

İran parlamenti nümayəndə heyətinin üzvləri Xocalıda törədilən qətliamın ağrı-acılarını ürəkdən hiss etdiklərini, Azərbaycan xalqının məruz qaldığı bu vəhşiliyi qınadıqlarını ifadə ediblər.

Söhbət zamanı parlamentlərarası əlaqələrin gələcək inkişaf perspektivləri, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığın daha da dərinləşməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Madər Musayev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər iştirak ediblər.

# Türkiyə Prezidenti Azərbaycanın baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Fevralın 17-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, baş prokuror yüksək qonaqpərvərliyə və səmimi qəbula, həmçinin 44 günlük Vətən müharibəsi dövründə Türkiyə tərəfindən göstərilən mənəvi dəstəyə görə təşəkkürünü ifadə edərək Prezident İlham Əliyevin salamlarını Türkiyənin dövlət başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hüquq mühafizə sahəsində də uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin daha da möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olunub.

Türkiyə Respublikasının Prezidenti dövlətimizin başçısı İlham Əliyevə salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Ankarada xalqımızın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edilib, abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad olunub.

# Azərbaycanın Baş Prokurorluğunun nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində qardaş ölkənin Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə görüş keçirilib.





AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilərək, ötən müddətdə hakimlərin və prokurorların ixtisaslarının artırılması məqsədilə qarşılıqlı səfərlərin təşkilinə və səmərəli hüquqi əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olunub.

Baş prokuror qeyd edib ki, ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və qardaş türk xalqı ölkəmizə siyasi və mənəvi dəstək nümayiş etdirməklə bir millət, iki dövlət olduğumuzu bir daha bütün dünyaya göstərdi.

Mehmet Akarca Vətən müharibəsində qazanılmış qələbə münasibətilə ölkəmizi və xalqımızı bir daha təbrik edərək Türkiyənin daim qardaş Azərbaycan xalqının yanında olduğunu bildirib və Azərbaycanı hər zaman olduğu kimi gələcəkdə də dəstəkləyəcəyini qeyd edib.

Daha sonra nümayəndə heyətinin Türkiyənin Ədliyyə Akademiyası ilə tanışlığı olub.

Akademiyanın rektoru Muhittin Özdemir ilə görüşdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin Türkiyənin Ədliyyə Akademiyası ilə əməkdaşlığının perspektivləri, ölkəmizin prokuror və müstəntiqlərinin Türkiyənin Ədliyyə Akademiyasında keçirilən ixtisasartırma kurslarında iştirakı məsələləri müzakirə olunub.

Həmçinin nümayəndə heyəti Ankara Bölgə Apellyasiya Məhkəməsini ziyarət edərək məhkəmənin baş prokuroru Hüseyn Çinar və sədri Ramazan Aksan ilə görüşüb. Nümayəndə heyəti prokurorluğun və məhkəmənin fəaliyyəti haqqında məlumatlandırılıb, yaradılmış şərait, iclas zalları və dindirmə otaqları ilə tanış olub.

Görüşlərdə ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim də iştirak edib.

# Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri telefonla danışıblar

**Fevralın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər bölgədə mövcud olan cari vəziyyəti, o cümlədən 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.



Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və Pakistanın Daxili İşlər nazirlikləri arasında sıx münasibətlər mövcuddur

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 17-də Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Bilal Haye ilə görüşüb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, strateji müttəfiqlər olan iki dövlət arasında əlaqələrin zəngin tarixə malik olduğunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu münasibətlərin daha da genişlənməsinə hər zaman xüsusi önəm verdiyini diqqətə çatdıran daxili işlər naziri V.Eyvazov beynəlxalq aləmdə və regional təşkilatlar çərçivəsində dost və qardaş ölkə olan Pakistanın Azərbaycanın mövqeyini hər zaman birmənalı şəkildə dəstəklədiyini məmnunluqla qeyd edib.

Dövlət başçılarının siyasi iradəsi nəticəsində son illər bütün sahələrdə inkişaf və tərəqqinin müşahidə olunduğunu qeyd edən nazir iki dost ölkənin Daxili İşlər nazirlikləri arasında da son illər sıx münasibətlərin mövcudluğundan, imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-leqal miqrasiyaya və insan alverinə qarşı mübarizədə birgə səylərin göstərilməsindən, əməliyyat məlumatlarının mübadiləsindən məmnunluğunu bildirib, qarşılıqlı səfərlərin, bu görüşün birgə işbirliyinin daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Bilal Haye dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin dərin köklərə malik olduğunu vurğulayaraq, xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlət və şəhərlərindən biri olmasından məmnunluğunu bildirib. Burada fəaliyyət göstərdiyi qısa zaman kəsiyində Azərbaycanda mövcud olan əmin-amanlıqdan, təhlükəsiz şəraitdən razılığını ifadə edən səfir əməkdaşlığın bütün sahələrdə daha da inkişafına öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Azərbaycan ilə İran arasında əməkdaşlıq münasibətlərinin daha da inkişafı üçün böyük potensial vardır

Fevralın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İran İslam Respublikası İslam Şura Məclisinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Müctaba Zünnurinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətini səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov bu səfərin ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli münasibətlərin inkişafına töhfə verəcəyini bildirib. Nazir ölkələrimiz arasındakı tarixi, mədəni, dini bağların ikitərəfli əməkdaşlıq münasibətlərinin əsasını təşkil etdiyini vurğulayıb. İranın hər zaman Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını dəstəklədiyi, xüsusilə də Vətən müharibəsi zamanı bütün səviyyələrdə nümayiş etdirdiyi dəstəyin Azərbaycan dövləti və xalqı tərəfindən yüksək dəyərləndirildiyi qeyd olunub.

Böyük Zəfər münasibətilə Azərbaycan dövlətinə və xalqına təbriklərini çatdıran Müctaba Zünnuri İranın Azərbaycanın haqq mövqeyinə verdiyi dəstəyi və ölkəmizlə həmrəy olduğunu vurğulayıb.

O, müharibədə həyatını itirən şəhidlərin yaxınlarına və Azərbaycan xalqına başsağlığı verib, yaralılara Allahdan şəfa diləyib.

Görüşdə ikitərəfli əməkdaşlıq münasibətlərinin daha da inkişafı üçün böyük potensialın olduğu vurğulanıb. Öz növbəsində, parlamentlərin bu münasibətlərin genişləndirilməsinə töhfə verə biləcəyi qeyd olunub.

Bölgədə yaranmış yeni vəziyyət və yeni imkanlar fövqündə ölkələrimizin bir sıra əməkdaşlıq layihələrinin həyata keçirilməsini irəli apara biləcəyi bildirilib. Habelə ölkələrimizin beynəlxalq müstəvidə əməkdaşlığı məmnunluqla qeyd olunub.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycanın və Böyük Britaniyanın hərbi təhsil üzrə ekspertləri arasında görüş keçirilib

**Silahlı Qüvvələrin Hərbi Akademiyasında Azərbaycan və Böyük Britaniya Müdafiə nazirliklərinin hərbi təhsil üzrə ekspertləri arasında görüş keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər hərbi təhsil sahəsində razılaşmaların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb, eləcə də hərbi ingilis dili kurslarının təşkilinin və ölkə xaricində keçirilən müxtəlif kurslarda iştirak edən hərbi qulluqçuların təcrübə mübadiləsinin zəruriliyini qeyd ediblər.

Görüşdə iki ölkə arasında hərbi təhsil sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Azərbaycan ilə Özbəkistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

Fevralın 17-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Özbəkistanın ölkəmizdəki səfiri Bahrom Aşrafxanovla görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri bildirib ki, ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlıq dostluq və qardaşlıq münasibətləri üzərində qurulub. Nazir qeyd edib ki, bütün sahələrdə olduğu kimi, müdafiə sahəsində də əlaqələrimiz ölkələrimizin maraqlarına uyğun uğurla inkişaf edir.

General-polkovnik Z.Həsənov səfirə ordu quruculuğu sahəsində keçirilən islahatlar və əldə olunan nailiyyətlər barədə də məlumat verib.

Diplomat Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhidlərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib. Səfir qeyd edib ki, Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır və hər zaman ölkəmizə bütün məsələlərdə dəstək göstərib.

Özbəkistanın Azərbaycan ilə birgə hərbi təlim və treninqlərin keçirilməsində maraqlı olduğunu qeyd edən səfir Özbəkistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Azərbaycanın hərbi təhsil müəssisələrində təcrübə mübadiləsinin aparılmasının vacibliyini də vurğulayıb.

Görüşdə müdafiə və hərbi təhsil sahəsində birgə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ilə bağlı bir sıra digər məsələlər müzakirə olunub.

# Ceyhun Bayramovun Minsk qrupunun həmsədrləri ilə videokonfrans formatında görüşü olub

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə videokonfrans formatında görüşü olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, fevralın 16-da xarici işlər naziri Ceyhun Bayramovun ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa), Endryu Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə videokonfrans formatında görüşü keçirilib.

Görüşdə tərəflər bölgədə mövcud olan cari vəziyyəti, o cümlədən 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün etimadın bərpa olunması və əmin-amanlıq şəraitində birgəyaşayışın həyata keçirilməsinin vacibliyi vurğulanıb.

# Əfqanıstanda Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə xidmət edəcək

Fevralın 17-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Əfqanıstanın Azərbaycandakı səfiri Amanullah Ceyhun ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan Səməd Seyidov ölkələrimiz arasında möhkəm dostluq münasibətlərinin təşəkkül tapdığını deyib. Əfqanıstanın Ermənistanın işğalı ilə üzləşən Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəklədiyini və bu mövqeyin 44 günlük Vətən müharibəsinin ilk günündən birmənalı şəkildə davam etdirildiyini bildirən Səməd Seyidov Əfqanıstan parlamentinin hər iki palatasının Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə olunan bəyanatlarına diqqət çəkib.

Səfir Amanullah Ceyhun qardaş ölkənin parlamentində olmasından məmnunluğunu ifadə edərək, Əfqanıstanda Azərbaycan səfirliyinin açılmasının ikitərəfli əməkdaşlığımızın dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş Zəfər münasibətilə təbriklərini çatdıran səfir deyib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT TŞ-nin qəbul etdiyi qətnamələri öz gücünə yerinə yetirərək bölgədə beynəlxalq hüququ və tarixi ədaləti bərpa edib. O, bu yaxınlarda azad edilmiş ərazilərdə işğalın acı nəticələrini şəxsən öz gözləri ilə gördüyünü diqqətə çatdırıb.

Azərbaycanın 2000-ci ildən bəri ölkəsində sülhməramlı missiyada iştirak etdiyini vurğulayan səfir Əfqanıstanı həmişə dəstəklədiyinə görə Azərbaycana təşəkkür edib. Diplomat ölkəsinin Azərbaycanla münasibətlərə dəyər verdiyini söyləyərək iki ölkə arasında əlaqələrin müxtəlif platformalarda daha da genişləndirilməsi üçün parlamentlərin mühüm töhfələr verə biləcəyini vurğulayıb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanın Əfqanıstanla bir çox sahədə əlaqələrin dərinləşməsində maraqlı olduğunu, o cümlədən hər iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığın daha da genişləndirilməsinə hazır olduqlarını qeyd edib.

Görüşdə müxtəlif platformalarda əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də tərəfləri maraqlandıran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Gənclər və idman komitəsində Vətən müharibəsinin iştirakçısı ilə görüş olub



**Fevralın 17-də Milli Məclisin Gənclər və idman komitəsində Vətən müharibəsinin iştirakçısı Məhəmməd Süleymanov və bir qrup idmançı ilə görüş keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun döyüş meydanında misli görünməmiş Qələbəsi barədə danışıb.

Söhbət zamanı döyüş və diplomatiya meydanlarında qazanılmış tarixi zəfərlərimizin idmançılarımız tərəfindən davam etdirilməsinin zəruriliyi qeyd olunub, habelə beynəlxalq yarışlarda iştirak edəcək idmançılarla yanaşı, idman hakimlərinin yetişdirilməsinin, idmanın gənclərin və yeniyetmələrin həyat tərzinə çevrilməsinin vacibliyi barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanda idmana və idmançılara göstərilən daimi diqqət və qayğıdan, ölkəmizin dünyada müxtəlif beynəlxalq idman tədbirlərinin yüksəksəviyyəli təşkilatçısı kimi tanınmasından məmnunluq ifadə edilib.

Sonda Vətən müharibəsi qazisi Məhəmməd Süleymanova və ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edən idmançıların bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim olunub.

# *Karin HOERHAN:* "Azərbaycan gender bərabərliyi məsələsinə məsuliyyətlə yanaşan ölkədir"





Fevralın 17-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Bahar Muradova Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) ölkə nümayəndəliyinin rəhbəri, "Yerli inkişaf üçün yaxşı idarəetmə" layihəsinin rəhbəri Karin Hoerhan ilə görüşüb.

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan Bahar Muradova bu görüşün yaxından tanışlıq və gələcək planların müzakirəsi baxımından əhəmiyyətli olduğunu bildirib. B.Muradova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının birgə həyata keçirdiyi layihələrin müsbət nəticələrlə yadda qaldığını qeyd edib, koronavirus pandemiyası ilə əlaqədar görülən işləri, eləcə də 44 günlük Vətən müharibəsi dövründə zərərçəkmiş insanlara göstərilən dəstək işində GİZ-in köməyini yüksək qiymətləndirib.

Bahar Muradova həm dünyada, həm də Azərbaycanda qadınların müxtəlif vəzifələr tutduqlarını, ümumiyyətlə, gender bərabərliyinin təmin olunmasına yönələn konkret addımların atıldığını qeyd edib. Komitə sədri bu prosesin daha sürətlə davam edəcəyini vurğulayıb. O, yerlərdə fəaliyyət göstərən gender əlaqələndiriciləri, xüsusilə bələdiyyə orqanları çərçivəsində yaradılmaqda olan gender komissiyaları məsələsinə diqqət çəkib, onlara lazımi texniki və digər dəstəyin göstərilməsi, bu istiqamətdə yerli əməkdaşların, eləcə də könüllülərin təlim keçmələrinin əhəmiyyətini qeyd edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ISESCO-nun yüksəksəviyyəli toplantısındakı çıxışına diqqət çəkən komitə sədri bildirib ki, təşkilat tərəfindən bu il "Qadınlar ili" elan edilib. Azərbaycan da bu təşkilatda çox fəal mövqeyə malikdir. Ölkəmizin İslam və Şərq dünyalarında bu istiqamətdə özünəməxsus inkişaf tarixinə və bugünkü nəticələrinə nəzər salsaq, bu prosesdə Azərbaycanın böyük rol oynayacağını deyə bilərik.

Vətən müharibəsindən sonrakı dövrdə quruculuq işlərinə toxunan AQUPDK-nın sədri Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə ən yüksək tələblərə cavab verən "ağıllı şəhər" və "ağıllı kənd"lərin yaradılacağını bəyan etdiyini, bu istiqamətdə addımlar atıldığını bildirib. Əlavə edib ki, komitənin də bu sahədə görəcəyi işlərin çərçivəsi genişlənməli, intensivliyi daha da artırılmalı, bu istiqamətdə bir sıra yeni əhəmiyyətli layihələr həyata keçirilməlidir.

Səmimi qəbula görə təşəkkürünü bildirən GİZ-in Azərbaycan nümayəndəliyinin rəhbəri Karin Hoerhan ölkəmizə gəlişinin pandemiya, eyni zamanda müharibə dövrünə təsadüf etdiyini diqqətə çatdırıb, indiyədək heç bir ölkədə bu qədər tarixi hadisənin şahidi olmadığını deyib.

K.Hoerhan çalışdığı bəzi ölkələrdə gender bərabərliyi məsələsinə sənəd üzərində baxıldığını bildirərək, Azərbaycanın bu məsələyə öhdəlik və məsuliyyətlə yanaşdığını vurğulayıb, ölkəmizdə bu sahədə işləməyin rahat olduğunu diqqətə çatdırıb. Təmsil etdiyi təşkilatın əsas rolunun Azərbaycanda olan tərəfdaşları strateji prioritet təşkil edən məsələlərlə bağlı dəstəkləmək olduğunu bildirən K. Hoerhan cari ildə icra edilən "Yerli inkişaf üçün yaxşı idarəetmə" layihəsi haqqında danışıb. O, Almaniya hökumətinin həvalə etdiyi layihələrdə məqsəd və indikatorlarla bağlı müəyyən çərçivələrin mövcud olduğunu bildirib. Göyçayda Qadın Resurs Mərkəzinin (QRM) yaradıldığını diqqətə çatdıran GİZ nümayəndəsi bu layihənin xüsusilə pandemiya zamanı qadınlara dəstək üçün pilot təşəbbüs olduğunu qeyd edib.

Daha sonra "Gender büdcələşməsi" layihəsinə toxunan K.Hoerhan bu məsələnin də mühüm əhəmiyyət kəsb etdiyini və onun davam etdirilməsində maraqlı olduqlarını qeyd edib. O, eyni zamanda həssas qrupdan olan, qaçqın və məcburi köçkün əhali üçün GİZ tərəfindən xüsusi layihənin icra edildiyini də diqqətə çatdırıb.

Görüşün sonunda Bahar Muradova Dövlət Komitəsinin 15 illiyi münasibətilə səmərəli əməkdaşlığa görə qurumların təltif edildiyini xatırladıb, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatına təşəkkürnamə təqdim edib.

# Əfqanıstan xalqı və dövləti hər zaman Azərbaycanın yanındadır

Fevralın 17-də Milli Məclisin Azərbaycan-Əfqanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Əfqanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Əfqanıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Qasımlı qonaqları salamlayaraq xalqlarımız arasındakı tarixi əlaqələrdən söz açıb. 44 günlük Vətən müharibəsi zamanı Əfqanıstan Milli Şurasının Yuxarı və Aşağı palatalarının Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul etdiklərinə görə əfqan parlamentarilərə, Azərbaycan xalqının haqq işini müdafiə edən bütün əfqan xalqına minnətdarlığını bildirib. Qeyd edib ki, həm Birinci, həm də İkinci Qarabağ müharibəsi dövründə verilən dəstək və bəyanatlar yalnız qardaşlığın rəmzi deyil, eyni zamanda Əfqanıstan İslam Respublikasının beynəlxalq hüquq normalarına və BMT Nizamnaməsinə hörmətindən irəli gəlir, əfqan xalqının iradəsini ifadə edir.

Azərbaycan-Əfqanıstan münasibətlərinin bir sıra tarixi məqamlarından bəhs edən Musa Qasımlı Xocalı soyqırımını tanıdıqlarına görə də qardaş ölkənin parlamentinə təşəkkürünü çatdırıb. Qeyd edib ki, Azərbaycan da hər zaman Əfqanıstanın haqq işini dəstəkləyib. Müxtəlif sahələr üzrə əfqan kadrların hazırlanmasına ciddi töhfələr verib. Əfqanıstanın təhlükəsizliyini təmin edən beynəlxalq qüvvələr strukturunda Azərbaycanın sülhməramlıları da xidmət edir. Biz hər zaman Əfqanıstanda sülhün və sabitliyin hökm sürməsinə, təhlükəsizliyin qorunmasına sadiq olmuşuq. Əfqan xalqının rifah içində yaşamasını, Əfqanıstanın güclü dövlət olmasını istəyirik. Görüşdə səfir Amanullah Ceyhun Vətən müharibəsindəki Qələbəyə görə təbriklərini və xoş arzularını çatdırıb. Əfqanıstan xalqının və dövlətinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. Ölkələrimiz arasında tarixi, dini və mədəni sahələrdə mövcud olan əlaqələrdən söz açıb. Səfir ermənilərin ötən əsrin sonlarından başlayan işğalçılıq əməllərini pisləyib. 44 günlük müharibə nəticəsində işğaldan azad olunmuş bölgələrimizə səfər etdiyini, xüsusilə Füzulidə gördüyü dağıntılardan, erməni vandalizminin nəticələrindən dəhşətə gəldiyini bildirib.

Ölkəsinin parlamenti barədə ətraflı məlumat verən qonaq hər iki palatada qadınlara geniş yer verildiyini bildirib, parlamentlərarası əlaqələrimizin genişlənməsini arzuladıqlarını qeyd edib.

Sonra Milli Məclisin komitə sədri, Azərbaycan-Əfqanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Tahir Rzayev xalqlarımız arasındakı dostluq və qardaşlıqdan bəhs edib, bir sıra vacib məsələlərə toxunub.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.





# Prezidentin təşəbbüsünün icrasında YAP yenə də ön sıradadır







*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, ölkəmizdə şəhid ailələrinə, müharibə əlillərinə göstərilən dövlət qayğısının əhatə dairəsi kifayət qədər genişdir. Prezidentin aylıq təqaüdü və digər sosial ödənişlər həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edir. Bu istiqamətdə bir çox sosial proqramlar da həyata keçirilir. Eyni zamanda şəhidin vərəsələrinə, müharibə əlillərinə sığorta ödənişi və digər ödəmələr də edilir. Şəhid ailələrinin üzvləri və müharibə əlillərinin övladları təhsil haqqını ödəməkdən azad olunublar. Aktiv məşğulluq proqramlarının icrasında (özünüməşğulluq, ödənişli ictimai işlər və s.) bu kateqoriyadan olan şəxslərə üstünlük verilir, eləcə də onların məşğulluğunun təmin edilməsi məqsədilə bütün işəgötürənlər üçün məcburi kvota müəyyən edilir. Şəhid ailələrinin üzvləri və müharibə əlilləri üçün vergi, əmək qanunvericiliyində və s. bir sıra hallarda güzəştlər də nəzərdə tutulub. Beləliklə, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində mütəmadi iş aparılır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da şəhid ailələri və Qarabağ qaziləri ilə bağlı mühüm sosial layihələr həyata keçirir. Fond daim şəhid ailələrinin sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, onların sosial müdafiəsinin gücləndirilməsinə öz töhfəsini verir.

Heydər Əliyev Fondu tərəfindən Qarabağ qazilərinin müalicəsinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə qazilərimizin yüksək səviyyədə müalicəsinin aparılması, zərurət yarandıqda Türkiyəyə müalicəyə göndərilməsi təmin edilir və nəzarətdə saxlanılır. Fondun bu cür nəcib əməlləri cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılanır.

Dövlətin şəhid ailələrinə və qazilərimizə qayğısının daha bir nümunəsi isə "YAŞAT" Fondunun yaradılması oldu. Prezident İlham Əliyevin fərmanı ilə fondun yaradılması bu kateqoriyadan olan insanlara qayğını daha da gücləndirdi. Fond Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə, işğaldan azad edilən ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, həmçinin hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirakı zamanı əlilliyi müəyyən olunmuş dövlət qurumlarının üzvlərinə və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə müvafiq yardımlar göstərir.

Bütövlükdə, fondun yaradılması Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə, ölkəmizin ərazi bütövlüyünün qorunması üçün canlarını qurban vermiş hərbçilərimizin ailələrinə, vərəsələrinə diqqət və qayğısının bariz nümunəsidir.

Prezidentin müvafiq tapşırığına əsasən, şəhid ailələrinin və Qarabağ əlillərinin problemlərinin həlli ilə bağlı yerli icra hakimiyyəti orqanlarında müvafiq şöbə də yaradılıb. Bu addım da onların sosial məsələlərinin həllinin daha çevik formada həll edilməsinə xidmət edir.

Ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası da hər zaman şəhid ailələrinin və qazilərinin sosial problemlərinin həllinə həssaslıqla yanaşır. Bu istiqamətdə YAP müxtəlif layihələri həyata keçirməkdədir. Vətən müharibəsi başlanan vaxtdan isə partiya tərəfindən "Şəhid ailələrinə qayğı" aksiyasına start verilib. Aksiya hazırda da davam etməkdədir.

"Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində YAP-ın İcra Katibliyi və onun rayon (şəhər) təşkilatlarının nümayəndələri mütəmadi şəkildə şəhid ailələrini ziyarət edir, onların qayğıları ilə maraqlanır və maddi dəstək göstərirlər. Layihə çərçivəsində bu günə qədər 1000-dən artıq şəhid ailəsi ziyarət olunub.

Şəhidlər bizim müqəddəs and yerimiz, qürur mənbəyimizdir. Onlar heç vaxt unudulmayacaq, həmişə minnətdarlıq duyğuları ilə yada salınacaq, xatirələrinə dərin ehtiram bəslənləcək.

Şəhidlərimizin ruhu həm də ona görə rahatdır ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var. Şəhidlərin xatirəsi bizə nə qədər əzizdirsə, onların doğmalarının, ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də bir o qədər dövlətimiz üçün önəmlidir və daim diqqət mərkəzində saxlanılır. Bu sahədə ən gözəl nümunəni isə Azərbaycan Prezidenti ortaya qoyub. Prezident xoşməramlı, humanist missiyası ilə hər kəsə şəhid ailələrinə, qazilərimizə münasibətin necə yüksək olmasını göstərir. Azərbaycan vətəndaşı, xüsusilə də ən həssas təbəqə olan şəhid ailələri, müharibə əlilləri bir daha şahidi olurlar ki, dövlət də, ölkənin lideri də hər zaman onların yanındadır, daim onlara sahib çıxıb və bundan sonra da belə olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan pandemiya ilə mübarizədə irəlidə gedir

**Pandemiyanın dünya iqtisadiyyatına təsirini iki baxış bucağından nəzərdən keçirmək mümkündür. Birinci qiymətləndirmədə dünyanın ümumi iqtisadiyyatı və qlobal ÜDM-in səviyyəsi əsas götürülür. Böyük Britaniyanın "Ekonomist" jurnalının ekspertləri dünya iqtisadiyyatında bərabərsizliyin getdikcə dərinləşəcəyini təsdiq edirlər.**

Çin postpandemiya dövrünü ən güclü göstəricilərlə adlaya bilmişdir. Ən ağır postpandemiya vəziyyəti Avropada özünü büruzə verir. ABŞ-ın aqibəti isə hələ ki sual altındadır. Britaniyalı ekspertlər ötən ilin fevralından pandemiyanın dünya iqtisadiyyatına ağır zərbələr endirəcəyini ehtimal etmişdilər. Belə ki, əmək bazarının çökməsi 500 milyon insanı küçəyə atmış, dünya ticarəti çökmüş, sərhədlər qapanmış, logistik sistemlər iflic olmuş, minlərlə müəssisə fəaliyyətini dayandırmışdı. Paralel olaraq birja böhranı da dərinləşmişdir. Banklar isə maliyyə bazarlarını xilas etmək üçün kisələrini açmışlar.

Göründüyü kimi, nəticələr o qədər də ürəkaçan deyil: bu ilin sonuna kimi ABŞ iqtisadiyyatı 2019-cu ilin səviyyəsində qalacaq, Çində 10 faizlik artım gözlənilir, Yaponiya çox güman ki, ağır demoqrafik vəziyyətdən əziyyət çəkdiyi üçün böhrandan əvvəlki səviyyədə bir neçə il ləngərləyəcək.

Ekspertlər pandemiyaya cavab kimi dövlətlərin fərqli qaydalarla hərəkət edəcəklərini proqnozlaşdırırlar. Bu gözləntilər o qədər də nikbin deyil. Dünya Bankı koronavirus pandemiyasının dünya iqtisadiyyatına 10 trilyon dollara başa gələcəyini bildirir. Ötən ilki proqnozlarda bəzi qurumlar ziyanın məbləğinin hətta 80 trilyonu aşacağını iddia edirdi. Bu itki "böyük böhran"ın (ABŞ, 1928) və iki dünya müharibəsinin birlikdə vurduğu zərərə bərabərdir.

Pessimist statistikanın bolluğuna baxmayaraq, Dünya Bankı hesab edir ki, 2021-ci ildə dünya iqtisadiyyatının bərpası nikbin notlara köklənir.

Bədbin proqnozlar Avrozona üçün 2 trilyon, ABŞ üçün 1,7 trilyon dollar həcmində itkilər vəd edir. İnkişaf edən ölkələrdən bir trilyon dollarlıq ağır zərbə Hindistan iqtisadiyyatının belini əyəcək. Cin iqtisadiyyatı Hindistanınkından nəzərəçarpacaq dərəcədə böyük olsa da, bu ölkə postpandemiya itkilərini cəmi 680 milyard dollarla yola verə biləcək.

Lakin pandemiya böhranına fərqli baxış bucağı da mümkündür. Bütün dünya itirir, amma milyarderlər varlanırlar. Super dövlətlərin iqtisadiyyatının geriləməsinə baxmayaraq, məhz bu ölkələrdə milyarderlərin gəlirində kəskin artımlar müşahidə edilir. "Forbes"in hesablamarına görə, dünyanın varlı adamları ən ağır böhran ilində ümumi kapitallarını 1,9 trilyon dollar artırıblar.

Kapitalını hamıdan çox - 110 milyard dollar artıran amerikalı İlon Maskdır. Bu adamın yüksək texnologiyalar sahəsindəki nailiyyətləri rəğbət doğurmaya bilməz. İkinci yerdə sürətlə kapitallarını 60 faiz -750 milyard dollar artıran Çin milyarderləri qərar tuturlar. Maraqlısı odur ki, Çin hamıdan tez koronavirusla qarşılaşsa da, daha fəal və çevik antivirus tədbirləri görə bilmişdir. Bütünlükdə, 400 Çin milyarderinin kapitalı artıq 2 trilyon dollara çatmışdır. 600 Amerika milyarderinin isə kapitalı 4 trilyon dolları haqlamışdır. Üçüncü yerdə fransız milyarderləridir. Onların varidatı 95 milyard dollar artaraq 500 milyard dollara qədər yüksəlmişdir. Amma Braziliyada 50 milyarder 13 milyard, Tailandda isə 30 milyarder 6 milyard dollar kasıblamışdır.

Ağır müharibə aparmasına və pandemiyanın müəyyən təsirlərinə məruz qalmasına baxmayaraq, Azərbaycan nikbin ölkələrin sırasındadır. Buna səbəb dövlətin həyata keçirdiyi operativ tədbirlərin geniş siyahısıdır. Koronavirusla mübarizə üçün yeni xəstəxanaların və laboratoriyaların qurulması, çoxsaylı testlərin keçirilməsi, müalicənin dövlət hesabına aparılması və güzəştsiz karantin tədbirləri, əhalinin operativ məlumatlandırılması müsbət nəticələr vermişdir. Davamlı islahatların həyata keçirilməsi, yüksək texnologiyalara keçid dövrünün elan edilməsi də bizə postmüharibə və postpandemiya dövründə daha nikbin gələcəyə köklənməyə imkan verir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya iqtisadiyyatının gələcəyi ilə bağlı ənənəvi hesabatında qlobal iqtisadiyyatın 2021-ci ildə 5,5, 2022-ci ildə isə 4,2 faiz artacağını bildirir. Müvafiq artım tendensiyaları qlobal ticarətdə də davam edəcək və növbəti iki ildə müvafiq olaraq 8,1 və 6,3 faizlik artım trendləri müşahidə olunacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) departament rəhbəri Ayaz Müseyibov bildirir ki, qlobal miqyasda fövqəladə vəziyyətə baxmayaraq, əvvəlki hesabatla müqayisədə iqtisadi inkişaf proqnozları 0,3 faiz artırılmışdır. Buna səbəb dekabr ayından başlayaraq vaksinasiya prosesinin başlanması nəticəsində pandemiyanın bitəcəyi ilə bağlı proqnozlardır.

A.Müseyibov belə hesab edir ki, Azərbaycan üçün qeyri-neft sektorunun inkişafı və ağıllı (smart) iqtisadi modelin qurulması prioritet təşkil etsə də, indiki halda neft qiymətləri ilə bağlı pozitiv proqnozlar iqtisadi artım drayverlərini tətikləyəcək.

BVF hesabatında inkişafda olan ölkələrin pandemiya ilə mübarizə çərçivəsində ciddi borc problemləri ilə üzləşdiklərini göstərir. İİTKM-in şərhində xüsusi qeyd olunur ki, bu baxımdan Azərbaycan pandemiya ilə mübarizəni yalnız öz daxili fiskal resursları hesabına təmin etməklə xarici borc səviyyəsinə görə ən yaxşı ölkələrdən biri kimi mövqeyini qoruyub saxlaya bilmişdir. Beləliklə, nüfuzlu beynəlxalq agentlik və təşkilatların proqnozları, həmçinin Qarabağın işğaldan azad edilmiş ərazilərindəki maddi və qeyri-maddi resursların iqtisadi dövriyyəyə qoşulması 2021-ci ildə ölkəmizi iqtisadi inkişaf meqatrendlərinin gözlədiyini göstərir.

Mərkəzin başqa bir araşdırmasında baş analitik Günay Quliyeva da diqqəti ona yönəldir ki, müxtəlif beynəlxalq qurumlar və beyin mərkəzləri 2021-ci il üçün makroiqtisadi ssenarilərində iqtisadi bərpanı təmin edən əsas faktor kimi vaksinasiya prosesini müəyyənləşdirmişlər.

Yeri gəlmişkən, qeyd edək ki, "GALLUP International" təşkilatının Azərbaycanda apardığı sorğunun nəticələrinə əsasən, vətəndaşların 86 faizi dövlətin pandemiya ilə mübarizə sahəsindəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycanın dünyada 4-cü yerdə olduğu bildirilir. Günay Quliyeva hesab edir ki, Azərbaycan bir çox ölkələr üçün dövlət-vətəndaş birliyi nəticəsində formalaşan sürətli və effektiv vaksinasiya modeli rolunu oynaya bilər.

Ötən il dünya ölkələrini ən çox "COVİD-19 pandemiyası ilə necə mübarizə aparaq" sualı maraqlandırırdısa, 2021-ci ilin ən böyük dilemması "vaksinləşmədə ölkə, ya dünya" seçimidir. Beynəlxalq təşkilatların proqnozlarına görə, dünya iqtisadiyyatı COVID-19-u tamamilə nəzarət altına almadığı müddətdə pandemiyanın mənfi təsirləri hər il 1,2 trilyon dollara çata bilər.

Zəngin ölkələrin əsasən vaksinlə təmin olunması, yəni vaksinləşmənin milliləşdirilməsi dünya əhalisini böyük risk altına atır, halbuki peyvənd məsələlərində yalnız ölkələrarası əməkdaşlıq bəşəriyyəti bu bəladan xilas edə bilər. Prezident İlham Əliyevin dediyi kimi, dünya ölkələri öz eqoizmlərindən əl çəkmədikcə və vaksinasiya prosesində əməkdaşlıq etmədikcə qlobal iqtisadiyyatı bərpa etmək mümkün olmayacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Vətən müharibəsi döyüşçüləri

## Zaqatalada Vətən müharibəsinin iştirakçısı ilə görüş olub

Zaqatala rayon Heydər Əliyev Mərkəzinin və Gənclərin İnkişaf və Karyera Mərkəzinin rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə Vətən müharibəsinin iştirakçısı, "Cəsur döyüşçü" medalı ilə təltif olunan baş leytenant Laçın Güliyevlə görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, mərkəzin əməkdaşlarının, mədəniyyət işçiləri və ziyalıların, gənclərin iştirakı ilə onlayn formatda keçirilən görüşün əvvəlində torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri Zaqatala rayon Heydər Əliyev Mərkəzinin direktoru Famil Rəhimov açaraq, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 gün davam edən Vətən müharibəsində qazandığı tarixi Qələbədən danışıb. Vurğulanıb ki, şanlı zəfərlə başa çatan Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə yeni-yeni səhifələr yazıb. Vətən müharibəsinin iştirakçısı Laçın Güliyev cəbhə təəssüratlarından, əsgər və zabitlərimizin keçdiyi şərəfli döyüş yolundan söz açıb.

Tədbirdə çıxış edənlər Prezident İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinin rifahının yaxşılaşdırılması məqsədilə imzaladığı fərman və sərəncamlardan, Vətən müharibəsi iştirakçılarına göstərilən diqqət və qayğıdan məmnunluqlarını ifadə ediblər.

## Vətən müharibəsinin daha bir qazisi yüksək texnologiyalı protezlə təmin ediləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları tarixi Zəfərimizin qazanılmasında pay sahibi olan qazi Əsgərzadə Bəkir Zakir oğlunun ailəsini ziyarət ediblər.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, B.Əsgərzadə Vətən müharibəsində şərəfli döyüş yolu keçib və hərbi əməliyyatların birində ağır yaralanıb.

Onun 5 nəfərdən ibarət ailəsinin (qazinin anası, atası, qardaşı, bacısı) sosial vəziyyəti öyrənilib. Ailənin əmək qabiliyyətli olan, lakin işləməyən üzvlərinin məşğulluq məsələlərinin həlli üçün işlər aparılır.

B.Əsgərzadənin yüksək texnologiyalı protezlə təmin edilməsi qərara alınıb. Bununla əlaqədar o, nazirliyin Protez Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə dəvət edilib. Mərkəzdə ölçülər götürülüb, protezləşməyə hazırlıq üçün evə buraxılıb. Qısa müddət ərzində qazi yüksək texnologiyalı protez ilə təmin olunacaq.

## Şəhid ailələrinə, qazilərə psixoloji və sosial dəstək vermək üçün xüsusi bölmələr yaradılıb



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Regional İnformasiya Mərkəzində yaradılan Psixoloji Dəstək Xidmətində müvafiq kateqoriyadan olan şəxslərə lazımi psixoloji xidmətlər göstərilir.

AZƏRTAC xəbər verir ki, sözügedən xidmətə müraciətin daha da asanlaşdırılması məqsədilə nazirliyin rəsmi internet saytında "Şəhid ailələri və müharibədə yaralananlara psixoloji dəstək" adlı xüsusi bölmə də istifadəyə verilib. Belə ki, Psixoloji Dəstək Xidmətindən yararlanmaq istəyən muxtar respublika sakinləri həmin bölməyə daxil olmaqla qeydiyyatdan keçə və ya göstərilən əlaqə telefonlarına müraciət edə bilərlər.

Bununla yanaşı, bu günlərdə nazirliyin saytında, "Şəhid ailələrinə və müharibə iştirakçılarına sosial dəstək" bölməsi yaradılıb. Bu bölməyə daxil olmaqla vətəndaşlar ölkəmizdə, eləcə də muxtar respublikamızda şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən xidmətlərin təşkili, qanunvericilikdə nəzərdə tutulmuş imtiyazlar və müavinətlərin təyini qaydaları, bu məqsədlə tələb olunan sənədlər və digər zəruri informasiyalarla tanış olmaq imkanına malikdirlər. Bölmə sorğu formatında qurulub və sosial dəstək tədbirləri çərçivəsində ən çox müraciət olunan sahələri əhatə etməklə hazırlanıb.

## Muxtar respublikada qazilərimizə tibbi xidmət göstərilir

**"Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsində yaradılmış həkim briqadası tərəfindən Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərimizin müalicəsi, onlara səhiyyə xidmətinin göstərilməsi davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, növbəti humanitar tibbi aksiya Babək rayonunda təşkil olunub. Aksiyada xəstəxananın 12 ixtisaslı həkimi, 2 tibb bacısı və laborantdan ibarət heyəti Qarabağ müharibəsi qazilərinə evlərində tibbi xidmət göstərib. Onlar rayonun Vayxır, Hacıvar, Qahab, Gülşənabad kəndlərində və Babək şəhərində yaşayan 6 nəfər Qarabağ qazisini müxtəlif müayinələrdən keçirib, tibbi yardım göstərib, dərman və tibbi maskalarla təmin edib, müvafiq təyinat və məsləhətlər veriblər. İki qazi fizioterapevtik müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb.



## Borca bilet alıb, Vətən savaşına gəldi

### "Vətən uğrunda döyüş gedərkən Rusiyada gül satmağı özümə ar bildim" deyib, Azərbaycana qayıdan Ceyhun Babazadənin rəşadətli hərb yolu, arzuları və son qərarı

*Biz Şuşa dağların alıb gəlmişik,*
*Qartaltək səmada süzüb gəlmişik,*
*Düşmənlərin başın əzib gəlmişik,*
*Yerdə qoymayıb daha qan!*
*Can, vətən əsgərləri...*
*Damağı çağ, kefi kök,*
*Can, vətən əsgərləri...*



Onu çoxları sosial şəbəkələrdə yayılan bu meyxanası ilə tanıdı. Amma bu meyxananın həmişə dinləyib gördüklərimizdən böyük fərqi vardı. O, hansısa məclisdə, toyda, söz yarışında deyil, Şuşa dağlarında yaranmışdı...

İsti, rahat məkanda, masa arxasında yox, qarlı, çovğunlu havada, düşmənlə təmasın 100 metrliyində, vətən keşiyində durarkən bədahətən deyilmişdi...

Özü də Azərbaycanın qələbəsi ilə başa çatan Vətən müharibəsində döyüşən qəhrəman əsgərlərimizdən biri tərəfindən...

### "Döyüşə gedirəm... Haqqını halal elə"

Ceyhun Babazadə...

Prezident İlham Əliyevin sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib. 1991-ci ildə Bakının Maştağa qəsəbəsində dünyaya gəlib. 2009-cu ildə baş atıcı kimi Ağdamda cəbhə xəttində hərbi xidmət keçib. Əsgərlikdən qayıdandan bir müddət sonra işləmək üçün Rusiyaya gedib. Sentyabrın 27-də Vətən müharibəsi başlayanda Rusiyanın Novokuznetsk şəhərində iş başında idi. Həmin gün Azərbaycanda Qarabağ uğrunda Vətən savaşının başlandığından xəbər tutan kimi ölkəsinə dönərək döyüşə qatılmaq qərarına gəldi. Lakin müəyyən problemlərlə qarşılaşdı.

- Məni ora xalam oğlu çağırmışdı. Qarşıma heç bir maneə çıxmasın deyə xalam oğluna fikrimi demədim. Biletin qiymətini öyrəndim. Ondan qabaq evimizə pul göndərmişdim deyə, əlimdə pulum az qalmışdı, bilet almağa çatmırdı. Pandemiya ilə əlaqədar Azərbaycana birbaşa reys olmadığı üçün əvvəlcə İstanbula, sonra Bakıya uçmalıydım və ümumilikdə 3 təyyarə dəyişməliydim. Ona görə vətənə dönüşüm baha başa gəlirdi.

Amma qarşıma məqsəd qoymuşdum və hökmən torpaqlarımızın azadlığı uğrunda başlayan Vətən müharibəsinə yollanmalıydım. Bir-iki tanışımdan borc pul istədim. Lazımi məbləğin düzəlməsini gözlədiyim müddətdə ürəyim partlayırdı, dayana bilmirdim. Vətən uğrunda döyüş gedir, mən də gül satıram - bunu özümə ar bilirdim. Beləliklə, bilet pulunu topladım, aldım. Gecə xalam oğluna məktub yazdım ki, "burda qala bilmirəm, döyüşə gedirəm. Birincisi, bağışla ki, səninlə görüşmürəm, haqqını halal elə. İkincisi də, vəsiyyət edirəm ki, filan adamlardan filan qədər borc pul götürmüşəm. Şəhid olsam, məni torpağa tapşırmamış borcumu bağla..."

Məktubu bir yoldaşıma verdim və dedim ki, sabah mən Bakıya çatandan sonra çatdırarsan. Telefonu da söndürdüm. Bir sutka sonra Bakıya çatan kimi qardaşım Azada zəng vurub dedim ki, hərbi biletimi götürüb aeroporta gəlsin...

### Anasına demədən döyüşə yollanır...

Bakıya yetişən Ceyhun evlərinə getmədən qardaşı ilə birlikdə hava limanından birbaşa hərbi komissarlığa yollanır. Həyətdə əsgərlərlə dolu avtobusun yola düşməyə hazırlaşdığını görür. Rəisin otağına girib, torpaqlarımızın azadlığı uğrunda döyüşmək məqsədilə Azərbaycana qayıtdığını deyərək, uçuş biletini göstərir, bir saatdır paytaxta gəldiyini, evlərinə də baş çəkmədiyini bildirir. Həyətdəki avtobusla onu da cəbhəyə göndərmələrini xahiş edir. Rəis biletə baxandan sonra bu gün gedib dincəlməsini, növbəti gün çağıracaqlarını söyləyir.

- Çarəsiz qalıb razılaşdım. Həmin gün anamın doğum günüydü. 55 yaşı tamam olurdu. Mən də tort alıb evə getdim. Anam qapını açıb məni görəndə təəccübləndi. Cunki evimizə hər ilin mart ayında gəlirdim. Məcbur olub yalan dedim ki, sənə doğum günü sürprizi etmək istədim. Xalam oğlu isə məktubumu oxuyandan sonra zəng vurub yalnız onu dedi ki, səninlə fəxr edirəm. Həmin gün anam da gəlişimin əsl səbəbini bildi.

Səhəri gün komissarlıqdan xəbər çıxmadı deyə, yenidən özüm məntəqəyə getdim. Dedilər bizə siyahı gəlir, hansı ştat üzrə əsgərə ehtiyac olsa, onu göndərəcəyik. Dilxor oldum. Orda Cavid adlı bir tanış vardı. Ondan xahiş etdim ki, baş atıcıya ehtiyac olsa, hamıdan qabaq məni çağırın, ömrüm boyu sizə minnətdar olaram.

Bir neçə gündən sonra zəng vurdular ki, sabah gəl. Anama xəbər etmədən getdim. Kürdəmirə çatanda zəng vurub dedim ki, məni Sumqayıtda hərbi hissədən çağırıblar, ora gedirəm. Ağcabədidə kazarmaya çatanda isə xəbər verdim ki, "Nasosnı"da 18 yaşlı əsgərlərə təlim keçəcəm, həftədə bir dəfə də evə gələcəm. Qubadlıya getdiyim gün isə zəng etdim ki, Şəkidə halvayla çay içirəm. Bir gün səni də bura gətirəcəm...

*Beləcə, anasına şirin yalan sataraq savaşa yollanır. Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edir. Hər zaman maraqla, həyəcanla izlədiyi döyüş filmlərindəki səhnələri bu dəfə ekran arxasında deyil, real həyatda yaşayır.*

### Düşməni cəzalandıraraq qaçmağa məcbur etdik

- Qubadlıda ağır döyüşlər gedirdi. Bomba yağışı bir dəqiqə belə dayanmırdı. Ayağımızın altında yer titrəyirdi. Mərmi, güllə göydən üstümüzə yağırdı. Elə bir an yox idi ki, top səsi eşidilməsin. Hər anımız ölüm idi...

Amma son döyüş ölənə qədər yadımdan çıxmaz. Bir təpənin ətəyində 60-a yaxın əsgər savaşırdı. Döyüş meydanında cəzalandırdığımız və çoxlu itki verərək qaçan ermənilər təpənin digər istiqamətində mövqe tutmuşdular. Atəş səsləri bir dəqiqə səngimirdi. Dayanmadan minatanlardan atəş açırdılar. Sadəcə yerimizi dəqiq nişan ala bilmirdilər deyə, mərmilər bizdən aralı düşürdü.

Həmin gün o təpənin döşündə gecələdik. Səhər saat 11 olardı, yenə minatanlardan atəş açmağa başladılar. Birdən top mərmilərindən biri qarşımızdakı qayaya dəyib partladı. Bizdən 150 metr aralıya düşdü. Demə, ərzaq maşını gələn zaman yerimizi müəyyənləşdiriblər. Yaxınlığımıza daha bir minomyot gülləsi atdılar. Həmin an komandir əmr verdi ki, hamınız cəld dərəyə düşün. Biz özümüzü dərəyə atmaqla həmin yerimizi vurmağa başladılar. Təxminən 30-40 saniyə çəkdi arası. O əmr verilməsəydi, əsgərlərin çoxu həyatını itirəcəkdi. 3 gün orda döyüşdük, düşmən əlavə qüvvələr cəlb etsə də, həmləsinin qarşısını aldıq, hücum edəndə çoxsaylı itki verib geri çəkildilər.

Noyabrın 10-da səhər xəbər verdilər ki, atəşkəs əldə olunub. Həm sevindik, həm də təəssüfləndik ki, döyüşlər dayandı. Çünki hər birimizin döyüş ruhu yüksək idi, düşməni son nəfərinə qədər məhv etmək əzmindəydik.

### Fəxr edirəm ki, Vətən savaşının iştirakçısı oldum

*Ceyhun Babazadə atəşkəsdən sonra da hərbi xidmətini davam etdirir. Bölük komandiri Azər Əsgərov, taqım komandiri isə Rəşad Baxşəliyev olur. Qubadlıda Ermənistanla dövlət sərhədi istiqamətində xidmət edir. Daha sonra xidmətini Xocavənd rayonu ərazisində davam etdirir.*

- Hadrutdan Xocavəndə gedən yol təhlükəli idi. Bircə maşın keçən yol idi. Kənarı isə uçurumlarıydı. Bəzən maşınlar aşırdı. Elə olurdu hamımız maşında sağ tərəfə əyilirdik ki, ağırlıq ora düşsün, soldakı aşırıma düşməyək. İki ay ön cəbhədə xidmət etdim. Elə post vardı ermənilərlə aramızda 50 metr məsafə vardı, səsləri eşidilirdi. Ehtiyatı əldən vermirdik ki, dumanlı havadan istifadə edərək təxribat törədə bilərlər. Ona görə döyüş vəziyyətinə hazır olurduq. Sonuncu xidmət yerim Xocavəndin Taqavar kəndi oldu. Ordan Tuğa gəldik. Ordan isə tərxis edildim.

*C.Babazadə deyir ki, cəbhədə keçən hər anı ömrünün ən unudulmaz xatirələrinə çevrilib. Ölümə hazır olsa da, şəhidlik kimi uca məqam ona qismət deyilmiş. Şəhid olmasa da, Vətən müharibəsinin iştirakçısı, şərəfli və tarixi anların şahidi kimi özünü xoşbəxt hiss edir.*

- Həmişə iki arzum olub. Birincisi, Qarabağı azad etmək üçün döyüşə başlayaq, mən də orda iştirak edim. İkincisi də, erməniləri öldürüb şəhadətə qovuşum. Birinci arzumu Allah yerinə yetirdi, amma ikincisini qismət etmədi. Bəlkə də vətən qarşısında hansısa köməyim üçün Tanrı məni sağ qoydu... Amma bir an belə ölüm qorxusu yaşamadm. Hətta ölümlə üz-üzə qaldığım anlarda belə... Bircə narahatlığım anama görə idi. Fikirləşirdim şəhid xəbərimi anama çatdıranda nə baş verəcək, buna dözəcəkmi. Ağlamağını, saçlarının ağarmağını təsəvvür edirdim.

Digər tərəfdən düşünürdüm ki, vətən uğrunda şəhadətə çatmaq ən gözəl, uca məqam olduğu üçün anam mənimlə fəxr edəcək. Görünür, şəhidlik qismətimdə yox imiş. Bütün hallarda Allaha şükür edirəm ki, bu tarixi anların iştirakçısı olmağı mənə qismət etdi. İki ay ön cəbhədə yaşadığım heç bir anı unutmayacam. Döyüşlər, bomba səsləri, qarın, yağışın, palçığın içində yatmağımız... hər saniyəsi ömrümün sonunadək bir xatirədir...

Bir də bu müharibə mənə yeni dostlar qazandırdı. Çox ürəkli, mərd oğlanlar tanıdım. Komandirimiz Rəşad bizə dost, qardaş oldu. Hər biri ilə fəxr edirəm. Onlar mənim döyüş yolumdakı dostlarımdır. Bir qabdan çörək yemişik. Bir tikəmiz olubsa, bunu bölmüşük. Elə olub bir siqareti 7 nəfər çəkmişik. O çətin şəraitdə yediyimiz quru çörək bol süfrəli məclislə bir deyil, amma adamın ürəyinə yağ-bal kimi yayılır və heç vaxt yaddan çıxmır.

### Rusiyaya qayıtmaq fikrindən daşındı

Döyüş günlərinin özünəməxsus çətin, ağır, təhlükəli anları ilə bərabər xoş, şirin məqamları da olur. Belə vaxtlarda hər kəs özünün yaradıcı qabiliyyətini ortaya qoyur. Kimi mahnı oxuyur, kimi şeir deyir, kimi də Ceyhun kimi meyxana qoşur. Vətənin keşiyində mərdliklə duran əsgərlərimiz bəzən əhvallarını xoş etmək üçün əsgər Babazadənin meyxanalarını dinləyirlər.

Gənc yaşlarından bu qabiliyyətini üzə çıxaran əsgər cəbhədə olduğu zaman ilk dəfə Qubadlıda bir döyüşçü yoldaşı ilə birlikdə meyxana deyir. O deyişmədə döyüşçülər, Milli qəhrəmanlar Mübariz İbrahimov, Polad Həşimov və bütün şəhidlərimiz yad olunur. Sosial şəbəkədə yayılan meyxana Xocavənddə lentə alınıb. Qafiyəni də taqım komandiri Rəşad Baxşəliyev açıb - damağı çağ, kefi kök, can vətən əsgərləri...

Digər bir meyxananı isə Maştağanın meyxana ustadlarından olan Fərman Kamiloğlunun istəyi ilə Saatlıdan olan Nahid adlı döyüşçüylə birgə deyir. Qafiyəni də elə ustad təklif edir.

*Can qurbandı dostumuza, qardaşımıza*
*Baxmayın bu otuza çatan yaşımıza*
*Uşaqlarımızı yığarıq başımıza*
*Döyüşdən söhbət edərik maraqlı*
*Olsam da, olmasam da qarabağlı,*
*Vətənimə bağlıyam, vətənimə bağlı...*

Bu meyxanaları Ceyhun bədahətən deyirdi. Misralar elə həmin anda ard-arda düzülürdü. Ancaq bir şeir də vardı ki, daim onun ürəyində, beynində, ruhunda və yanında idi. Bu da Pünhan Alatavalının "Şəhidlər" qəzəli idi. Ceyhun o şeiri kağıza yazaraq cəbhəyə yola düşəndə cibinə qoyub. Döyüşdə olduğu zamanlarda belə cibindən çıxardıb oxuyur. Bəlkə də o şeirin şəhid olarsa, özündən son nişanə kimi qalmasını arzulayır. Lakin yazılı kağız Ceyhunun şəhidlik "vəsiqəsi" yox, şahidlik yoldaşına çevrilir. Onunla birgə "döyüşərək" yenidən geri qayıdır. İndi o saralıb-solmuş kağızı müharibənin yadigarı, xatirəsi kimi evində qoruyub saxlayır.

Bəli, Ceyhun Babazadə Vətənin ən ağır, dar günündə onu tək qoymadı. Borca pul götürərək vətən qarşısındakı vətəndaşlıq, vicdan, şərəf borcunu yerinə yetirdi. Rusiyada qalıb canını qorumağı özünə ar bilərək vətənə qayıdıb, canını, qanını torpaq uğrunda fəda etməyi borc bildi. Ölüm-qalım müharibəsində şəhid olacağını zənn etsə də, evinə tarixin şahidi, qəhrəman döyüşçü kimi döndü...

*Və bu Vətən savaşı Ceyhun Babazadənin həyatını da başqa yönə dəyişdi, fərqli yerə istiqamətləndirdi... Rusiyaya qayıdıb işləmək fikrindən daşındı. Elə öz yurdunda, öz torpağında qalıb işləmək qərarını verdi.*

*Bir daha Vətənə lazım olan zamanda əvvəlki kimi uzaqda yox, yaxında ola bilmək üçün...*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Şəhidlər ölməz, Vətən bölünməz!

### Xəzangül QURBANOVA: "Şəhidlik zirvəsi nə qədər ucadırsa, şəhidin həyat yoldaşı olmaq da bir o qədər qürurludur"

Budəfəki yazımız Vətən müharibəsində qəhrəmancasına şəhid olan Ramil Qurbanov haqqındadır. Ramil ömrünün 12 ilini Vətənin keşiyində dayandı. Müharibədə isə Vətən torpağı uğrunda son damla qanına qədər döyüşərək qəhrəmancasına şəhid oldu.







AZƏRTAC xəbər verir ki, Beyləqanın Dünyamalılar kəndindən olan Qurbanov Ramil Sudeyif oğlu 1987-ci ildə anadan olub. Hələ uşaq yaşlarından vətənpərvərliyi ilə seçilən Ramil böyüyəndə hərbçi olmaq arzusu ilə yaşayıb. O, həqiqi hərbi xidmətə əkiz qardaşı ilə birlikdə yollanıb. Xidməti dövründə hərbi sirlərə yiyələnən hər iki qardaş çavuş rütbəsi ilə tərxis olunduqdan sonra yenidən ordu sıralarına qayıdaraq hərbçi olurlar. Əkiz qardaşı bir müddətdən sonra mülki işdə çalışmağa başlasa da, Ramil xidmətini davam etdirir.

Şəhidin atası Sudeyif Qurbanov söyləyir ki, Ramilin hərbçi olmaq ən böyük arzusu idi. O, gizirlik məktəbini iki ayrı ixtisas üzrə - motoatıcı, sonra isə PDM-çi olaraq bitirib. Təyinatı arxa cəbhədə olan hərbi hissələrə verilsə də, Ramil öz istəyi ilə ön cəbhədə xidmət etməyi seçib. Hələ Aprel döyüşləri zamanı Ramil düşmənə ağır zərbələr endirilməsində iştirak edib. Xidməti dövründə "Qüsursuz xidmətə görə" medalı ilə, həmçinin fəxri fərmanla təltif olunub. Vətən müharibəsində isə ilk gündən döyüşlərə qoşulub.

"Mən təkcə Ramil ilə deyil, bütün şəhidlərimizlə fəxr edirəm. Çünki onların qəhrəmanlığı sayəsində bu gün torpaqlarımız azaddır və şəhidlərimizin qanı yerdə qalmayıb", - deyə o qeyd edib. Ramilin ömür-gün yoldaşı Xəzangül Qurbanova da yoldaşı haqqında qürurla danışır: "Ramil çox vətənpərvər idi, onun bir çox arzuları vardı. Hər dəfə deyərdi ki, torpaqlarımızı işğaldan azad etmək bizim borcumuzdur. O, PDMÇ-i olaraq döyüşlərdə iştirak edirdi. İlk hücum zamanı düşmən onların texnikasını vurub, buna baxmayaraq, Ramil və döyüşçü yoldaşları düşmənə qarşı texnikasız hücuma keçib. Səkkiz nəfərlik heyətlə 48 erməni faşistini məhv edib. Füzuli istiqamətində gərgin döyüşlər zamanı düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhidlik zirvəsinə ucalıb. Şəhidlik zirvəsi nə qədər ucadırsa, şəhidin həyat yoldaşı olmaq, o adı daşımaq da bir o qədər qürurludur, əzizdir".

Ramilin iki oğlan övladı yadigar qalıb. Xəzangül dedi ki, hər iki oğlu ataları şəhid olduqdan sonra hərbi forma geyinməyi istəyib. O da, uşaqların istəyinə uyğun olaraq, övladlarına hərbçi forma alıb. Onlar da atalarının yolunu davam etdirmək arzusundadırlar.

Ramil Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

## Şəhid olmasaydı, bu gün 26 yaşını qeyd edəcəkdi...

**Ağsu rayonunun Padar kəndində dünyaya gələn, 2014-cü ilin avqustunda erməni təxribatçılarına qarşı döyüşlərdə qəhrəmancasına şəhid olan Rüfət Fətəlizadənin doğum günü uyuduğu şəhidlər qəbiristanlığında ehtiramla yad edilib. Yaşasaydı, bu gün Rüfətin 26 yaşı olacaqdı...**




AZƏRTAC xəbər verir ki, Ağsu şəhərindəki Şəhidlər qəbiristanlığında keçirilən anım mərasimində rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon Şöbəsinin məsul işçiləri, kənd sakinləri, şəhidin yaxınları, habelə ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxışlarda şəhid Rüfət Fətəlizadənin qısa, lakin şərəfli ömür yolundan danışılıb. Bildirilib ki, 1995-ci il fevralın 15-də dünyaya göz açan Rüfət həqiqi hərbi xidməti zamanı 2014-cü ilin avqustunda cəbhənin Tovuz rayonu istiqamətindəki Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində erməni təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib. Padar kəndində barelyefi qoyulub, adına bulaq çəkilib.

Azərbaycanın ərazi bütövlünün pozulmasından, erməni işğalından və törədilən vəhşiliklərdən danışan natiqlər, Rüfət və onun kimi şəhidlərimizin qanının yerdə qalmadığını söyləyiblər. Vurğulanıb ki, ötən il sentyabrın 27-də başlanan Vətən müharibəsində düşmən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə diz çökdürüldü, torpaqlarımız işğaldan azad edildi.

Anım mərasimində şəhidin ruhuna dualar oxunub, məzarı üzərinə çiçəklər düzülüb.

# İQTİSADİ İNKİŞAF və SOSİAL RİFAH

## İlin ilk Çin-Azərbaycan konteyner qatarı Bakıya çatıb

**Çin-Azərbaycan istiqamətində 2021-ci ilin ilk konteyner blok qatarı Bakıya çatıb.**

“Trend”in məlumatına görə, qarışıq yüklərdən ibarət qatar Çinin Çinqdao şəhərindən Bakıya qədər olan məsafəni 15 günə qət edib. Blok qatarı hər biri 40 futluq olan 50 konteynerdən ibarətdir. Konteynerlər Qazaxıstanın Aktau limanından Ələt limanına operatoru “ADY Konteyner” olan “Beket Ata” fider gəmisi vasitəsilə çatdırılıb. Konteynerlərdən 15-i Gürcüstanın paytaxtı Tbilisiyə göndəriləcək.

Layihə Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun üzvləri olan “KTZ Express”, “ADY Konteyner” MMC və “GR Logistics and Terminals”-ın birgə əməkdaşlığı çərçivəsində həyata keçirilib.

2021-ci ilin sonunadək “ADY Konteyner” MMC tərəfindən Çin-Azərbaycan istiqamətində 50-dək konteyner blok qatarının nəql olunması planlaşdırılır.

## İsveçrənin Əməkdaşlıq İdarəsinin Azərbaycandakı fəaliyyət istiqamətləri müzakirə olunub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı ilə İsveçrənin Əməkdaşlıq İdarəsinin (SECO) Cənubi Qafqaz üzrə regional direktor müavini Alberto Hernandez arasında onlayn formatda görüş keçirilib.

İcraçı direktor V.Qasımlı ölkədə aparılan uğurlu iqtisadi islahatlar, sosial-iqtisadi inkişafa dair Azərbaycanın 2030-cu il üzrə qəbul edilən milli prioritetləri, İİTKM-in monitorinq və qiymətləndirmə institutu olaraq həyata keçirdiyi fəaliyyətlər, eləcə də “Azexport.az”, “EnterpriseAzerbaijan.com”, Rəqəmsal Ticarət Qovşağı, “Azranking.az” və “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi barədə məlumat verib. Görüşdə İİTKM-də makroiqtisadi tədqiqatlar üzrə hazırlanmış təhlil və proqnozlaşdırma modellərinin hazırlanmasında SECO tərəfindən təmin edilən ekspert dəstəyi və göstərdiyi əməkdaşlıq yüksək qiymətləndirilib.

SECO-nun Cənubi Qafqaz üzrə regional direktor müavini A.Hernandez Azərbaycanda özəl sektorun və maliyyə sektorunun inkişafı istiqamətində qurum tərəfindən icra olunan fəaliyyətlər barədə məlumat verib. Görüşdə makroiqtisadi təhlil və proqnozlaşdırma modellərinin qurulması, diversifikasiya, maliyyə sektorunda islahatlar kimi strateji sahələr gələcək əməkdaşlıq istiqamətləri kimi təklif edilib.




## İlham Əliyev Qarabağa növbəti səfərində də ənənəsinə sadiq qaldı

### Dövlət başçısının xeyir-duası ilə işğaldan azad olunmuş ərazilərdə yeni layihələrin icrasına başlanıldı

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev son vaxtlarda dəfələrlə bildirib ki, azad olunmuş ərazilər “yaşıl enerji” zonasına çevriləcək. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı məhz alternativ enerji mənbələrindən əldə olunacaq. Sözügedən səfər zamanı dövlət başçısı bu istiqamətdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

Təbii ki, bərpa işləri arasında elektrik enerjisi təchizatı xüsusi yer tutur. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlar atılıb və birinci mərhələ başa çatıb. “Azərişıq” şəhərə elektrik xətlərini çəkib. Şuşanı dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” də burada yüksək gərginlikli xətlər çəkir və elektrik yarımstansiyası inşa edir.

Fevralın 14-də isə Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasını işə saldı. Stansiya Laçın rayonunun cənub hissəsində - Güləbird kəndinin ərazisində yerləşir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Stansiya təxminən 7 min nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq.

Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Stansiyanın açılışında çıxış edən dövlət başçısı dedi: “Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya ortahəcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik... Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik”.

Prezident eləcə də bu bölgələrdə bərpa olunan enerji növlərinin böyük potensialı olduğunu bir daha diqqətə çatdırdı. “Xudafərin” və “Qız qalası” su elektrik stansiyalarının tikintisinə dair İran İslam Respublikası ilə razılıq əldə olunduğunu bildirdi. Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaq. Kəlbəcər və Laçın rayonlarında külək, Zəngilan və Cəbrayıl rayonlarında isə daha çox Günəş enerjisi potensialı olduğu da qeyd edildi.

Səfər çərçivəsində Prezident ailə üzvləri ilə Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində oldular. Erməni vandalları burada da ekoloji terror törədiblər, meşəlik ərazinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıblar. Dövlət başçısı, birinci xanım və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.

Sonra dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndində də oldular. Burada Prezidentə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi. Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

Xatırladaq ki, azad edilmiş torpaqların böyük kənd təsərrüfatı potensialı var. Təkcə builki mövsümdə həmin ərazilərdə 20-25 hektarda əkin işləri aparılacaq. İndiyədək suvarılmayan 100 min hektar torpaq sahəsinə su verilməsi tapşırılıb.

Prezident Qarabağın yağı əli ilə tarmar edilmiş kəndlərindən keçdikcə diqqəti bir daha erməni vəhşiliyinə yönəltdi. Bu yerləri cənnətə çevirəcəyimizi və burada əbədi yaşayacağımızı dünyaya bir daha bəyan etdi: “Bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.”

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Fevral ayının pensiya ödənişləri yekunlaşıb

**Dövlət Sosial Müdafiə Fondu tərəfindən respublikanın bütün şəhər və rayonları üzrə fevral ayının pensiya ödənişləri başa çatdırılıb.**




Dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslərə pensiyaların ödənişi də həyata keçirilib.

Vətəndaşlar pensiyalarını onlara verilmiş bank kartları vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

Yanvar ayının pensiyalarına indeksasiya nəticəsində edilmiş artımlar fevral ayının pensiyalarına əlavə edilib.

## Ölkəmiz internet ticarətinin inkişafı reytinqində irəliləyib

**Azərbaycan 2020-ci ildə internet ticarətinin inkişafı reytinqində öz mövqeyini yaxşılaşdırıb.**

“Trend”in məlumatına görə, bu barədə BMT-nin Ticarət və İnkişaf Konfransının illik hesabatında deyilir. Hesabata əsasən, Azərbaycan 2020-ci ildə reytinqdə 152 ölkə arasında 65-ci yerdə qərarlaşıb. Region ölkələrindən Rusiya 41, Gürcüstan 47, Türkiyə 57, Ermənistan 84-cü yer tutub.

İlk üçlükdə İsveçrə, Niderland və Danimarka yer alıb.

## “Azəriqaz” gücləndirilmiş iş rejiminə keçir

**Ölkə ərazisində hava şəraitinin dəyişəcəyi barədə verilən məlumatdan irəli gələrək “Azəriqaz” İstehsalat Birliyi gücləndirilmiş iş rejiminə keçir.**

“Azəriqaz”ın bütün müvafiq strukturlarına baş direktor Ruslan Əliyev tərəfindən lazımi tapşırıqlar verilib. Təbii qazın tələbata uyğun düzgün rejimlərdə paylanılması diqqətdə saxlanılır.

Qaz şəbəkəsində vacib təmir prosesləri bu günlərdə təxirə salınıb. Qəza, qaz sızması, qaz sayğacları ilə bağlı nasazlıqlar ortaya çıxarsa, operativ şəkildə aradan qaldırılacaq. Artıq növbəlilik tətbiq edilib, birliyin aidiyyəti strukturlarında müəyyən sayda əməkdaşlar iş başındadır.

## Qubadlının Azərbaycanın aqrar-sənaye kompleksinə sanballı töhfələr vermək imkanı var

### Bu potensialı işə salmaq üçün rayonun kənd təsərrüfatında innovativ texnologiyalardan istifadə ediləcək



Əvvəli 1-ci səh.

Ekspert bildirir ki, aparılan araşdırmalar nəticəsində 2025-ci ilə qədər Qubadlı rayonunda tütünün intensiv üsullarla əkilib-becərilməsi hesabına hər hektardan 4 ton məhsuldarlıqla istehsalın 2 min tona çatdırılması proqnozlaşdırılır. Bu isə ölkə üzrə tütün istehsalının təxminən 25-27 faizi deməkdir.

1980-ci ildə rayonda həmçinin 5 min hektar sahədə taxıl əkilmiş və sahələrdən 5,2 min ton məhsul biçilmişdi. 1985-ci ildə isə 3,6 min hektardan 8 min ton taxıl toplanmışdı. Ümumiyyətlə, rayon üzrə işğaldan öncəki dövr ərzində (1980-1988-ci illərdə) taxılın məhsuldarlığında təxminən 2 dəfəyədək artım olmuşdu. Həmin illərdə məhsuldarlığın təxminən respublika səviyyəsinə bərabər olması Qubadlı rayonunun taxılçılıqdakı potensialının göstəricisidir.

Ekspert Ə.Dadaşov qeyd edir ki, Qubadlının torpaq, iqlim, su resursları, eləcə də tarixən mövcud olan bitkiçilik ənənəsi bu regionda meyvə və tərəvəz istehsalının da perspektivindən xəbər verir. Potensial nəzərə alınaraq bu zonada pilot layihə kimi nar və xurma bağlarının salınması plan çərçivəsində həyata keçiriləcək. 2025-ci ildə burada 3 min tona yaxın bostan məhsulları istehsalı da nəzərdə tutulur.

Ümumilikdə rayonun sözügedən dövrdə 17 min hektarlıq əkin və bağ sahələrindən 48-50 min ton bitkiçilik məhsulları istehsal etmək imkanları var. Bitkiçilik məhsulları istehsalı nəticəsində Qubadlının yaratdığı əlavə məhsul dəyərinin 27,6 milyon manat, ölkə üzrə proqnoz göstəricilərindəki payının isə 0,6 faiz olması gözlənilir. Heyvandarlıq sahəsinin yemə olan tələbatı nəzərə alınarsa, işğaldan azad edilmiş torpaqlar üçün qəbul olunmuş Tədbirlər Planı çərçivəsində rayonda yemlik otların yetişdirilməsi üçün sahələrin salınmasına da diqqət yetiriləcək.

Bir sözlə, işğaldan azad edilmiş Qubadlı rayonunda da yeni islahatlar və innovativ texnologiyaların tətbiqi sayəsində ümidverici nəticələr əldə etmək mümkün olacaq. Tədqiqatlar nəticəsində proqnoz inkişaf dövrü hesab edilən 2025-ci ilə qədər Qubadlı rayonunda taxıl istehsalının 32,4 min tona qədər artırılması gözlənilir.

Qarabağın digər rayonlarındakı kimi, burada üzümçülük də əsas bitkiçilik sahələrindən hesab olunur. Tədqiqatlar göstərir ki, 1985-ci ildə Qubadlıda 2,4 min hektar sahədə 6,2 min ton üzüm yetişdirilmişdi. Lakin sonrakı dövrdə məlum səbəblər üzündən üzüm sahələri 1988-ci ildə 997 hektaracan azalmışdı.

Yeni texnika və texnologiyaların tətbiqi nəticəsində ölkədə digər bitki növləri ilə yanaşı, üzümə olan tələbatın tam təmin edilməsi gözlənilir ki, buna Qubadlı da sanballı töhfəsini verə bilər. Belə ki, 2025-ci ildə ölkənin üzüm istehsalında bu rayonun payı 1,5 faiz olmaqla, 2,7 min ton proqnozlaşdırılır. Üzümçülüyün dirçəldilməsi, o cümlədən texniki üzüm sortlarının yetişdirilməsi rayonda, həmçinin şərabçılığın inkişafına təkan verəcək.

Məlum olduğu kimi, ölkədə aqrar innovasiyalardan istifadə edilməklə yeni intensiv meyvə-giləmeyvə bağlarının salınmasına və istixanalarda tərəvəz yetişdirilməsinə başlanılıb. Bu baxımdan həmin məhsullar üzrə ərzaq təhlükəsizliyinin təminatına və ixracatın artımına Qubadlı rayonunun da böyük töhfəsi olacaq.

Qeyd edilən dövrdə Qubadlıda heyvandarlığın bərpa edilməsi (34,1 min baş iribaşlı və 51,7 min baş xırdabaşlı) ölkədə bu sahənin inkişafına və sürü dövriyyəsinin təqribən 1,7 faiz artımına səbəb ola bilər. Diri və kəsilmiş çəkidə ət istehsalında 0,2, yun istehsalında təqribən 0,3 faiz artım proqnozlaşdırılır. Süd və yumurta istehsalında isə müvafiq olaraq 1,9 və 0,4 faiz artım olacağı gözlənilir.

Ekspert həmçinin bildirir ki, araşdırma və tədqiqat nəticəsində proqnoz dövrə qədər rayon üzrə 37,5 milyon manatlıq heyvandarlıq məhsulları istehsalı gözlənilir və bu, ölkə üzrə müvafiq istehsal miqyasında 0,8 faiz əlavə dəyər yaradılacağından xəbər verir. Üstəlik rayon əhalisinin barama istehsalı üzrə də keçmişdən qalma ənənəsi var. Ona görə təxminən 45-50 ton barama istehsalı potensialı da nəzərə alınmalıdır.

Qubadlı rayonunda, eləcə də taxılın, südün, gön-dərinin və ipəyin emalı müəssisələrinin qurulması üçün böyük potensial var. Bu region üçün yeni trend hesab edilən meyvəçilik sektoru üzrə emal müəssisələrinin yaradılması, arıçılıq məhsullarının istehsalı imkanları da hesablanarsa, Qubadlıda aqro-sənayenin təmərküzləşmiş və klasterial inkişafı iqtisadiyyata sovet dövründəkindən də çox töhfə verə bilər.

Ümumilikdə, kənd təsərrüfatı infrastrukturun bərpası, yeni əkin sahələrinin və bağların salınması, otlaq sahələrinin, eləcə də heyvandarlığın inkişafı üçün zəruri infrastrukturun bərpası nəticəsində məhsuldar dövrün başlanğıcı sayılan 2025-ci ildə ölkədəki kənd təsərrüfatı istehsalına Qubadlı rayonunun birbaşa əlavə töhfəsinin dəyəri 65,1 milyon manat, başqa sözlə, 0,7 faiz olacağı proqnozlaşdırılır. Təbii ki, bu proqnozlar sadəcə aqrar potensialı əhatə edir. Sonrakı dövrdə emal və dəyər zənciri üzrə aqro-sənaye potensialı da hesablanarsa, rayonun ölkə üzrə ümumi daxili məhsulda və yeni iş yerlərinin yaradılmasında rolu daha böyük olacaq.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Azərbaycan universitetlərində layihə idarəetmə potensialı yaradılır

**BP və onun “Azəri-Çıraq-Günəşli”, Bakı-Tbilisi-Ceyhan, “Şahdəniz” və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - SOCAR, TPAO, PETRONAS, MOL, LUKOİL, NİCO, “Equinor”, İNPEX, “ExxonMobil”, “SGC”, İTOCHU, ONGC, TOTAL, “Eni” Azərbaycanın aparıcı universitetlərində potensialın yaradılmasına dəstək verilməsi üzrə mühüm təhsil layihəsinin uğurla tamamlandığını elan ediblər.**

Bu layihə BP və tərəfdaşlarının təhsilin inkişafına və bütün səviyyələrdə yerli potensialın və bacarıqların gücləndirilməsinə dəstəyi çərçivəsində maliyyələşdirilib.

Layihənin məqsədi yerli ali təhsil müəssisələrində layihə idarəetmə bacarıqları yaratmaqdır. Bu məqsədlə seçilmiş 15 universitetin hər birindən üç nümayəndəyə təlimlər keçirilib və onlara beş aylıq təlim proqramını tamamladıqdan sonra İPMA (Beynəlxalq Layihə İdarəetmə Assosiasiyası) standartı üzrə beynəlxalq layihə idarəetmə sertifikatı təqdim edilib. İPMA layihə menecerlərinin qiymətləndirilməsində dünya lideridir.

Bu layihə sayəsində iştirakçı universitetlərin artıq D səviyyəli (İPMA qiymətləndirməsinin dörd dərəcəsindən biri) Layihə İdarəetmə Mütəxəssisi sertifikatına malik layihə menecerlərindən ibarət heyətləri mövcuddur.

Layihə çərçivəsində həmçinin layihə menecerləri üçün Azərbaycan dilində yeni kitab da nəşr edilib.

BP-nin Yaxın Şərq və Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli: “Təhsilə dəstəyimiz çərçivəsində biz bir sıra yerli universitetlərlə müxtəlif layihələr üzrə əməkdaşlıq edərək onlara təhsilin keyfiyyətini artırmaq üçün lazım olacaq bacarıqların və potensialın yaradılması və inkişaf etdirilməsi yönümündə dəstək veririk. Bu cür birgə layihələrin səmərəli icrası üçün şübhəsiz ki, ümumi icra prosesinə, o cümlədən büdcənin idarə edilməsinə və maliyyə hesabatlılığına cavabdeh olacaq xüsusi layihə menecerləri tələb olunur. Biz sevinirik ki, indi artıq 15 yerli universitetin beynəlxalq sertifikatlı mütəxəssislərdən təşkil olunmuş xüsusi peşəkar layihə idarəetmə heyətləri var. Bu, həmin universitetlərin milli və beynəlxalq təşkilatlarla olan birgə layihələrini səmərəli şəkildə idarə etməsinə və bununla da təhsilin keyfiyyətinin artırılmasına dəstək olaraq öz əməkdaşlıqlarını genişləndirməsinə imkan yaradacaq”.

Layihənin dəyəri 75 min 902 manatdır. Layihənin icrası Layihə İdarəetmə Assosiasiyası tərəfindən həyata keçirilib.

***“Azərbaycan”***

## Şəhid ailəsi üzvləri, qazilər də daxil olmaqla, daha 60 şəxs üçün kiçik bizneslər qurulub

**Dövlət Məşğulluq Agentliyi tərəfindən şəhid ailəsi üzvləri və qazilər də daxil olmaqla, daha 60-dək şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim edilib.**

Onlar Bakı şəhərinin, Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Samux, Şamaxı rayonlarının sakinləridir. Proqrama cəlb olunduqdan sonra həmin şəxslər istehsal-xidmət sahələri üzrə kiçik bizneslərini qurmaq üçün qısa müddətdə lazımi avadanlıqlarla təmin olunublar.

Hazırda proqram iştirakçılarına seçdikləri iqtisadi fəaliyyət növləri üzrə biznes-planlarına uyğun aktivlərin verilməsi davam edir.




Agentlik ötən il 12600 şəxsi özünüməşğulluq proqramına cəlb edib. 2021-ci ildə isə 16 min şəxsin bu proqramla əhatə olunması nəzərdə tutulub.

## 35 təlimdə 1300-ə yaxın fermer iştirak edib



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən müəyyən olunmuş təlim proqramına uyğun olaraq fermerlərin maarifləndirilməsi məqsədilə təlimlər davam etdirilir.

Təlim proqramı çərçivəsində 29 yanvar-12 fevral tarixləri arasında 1289 fermerin iştirakı ilə aqrar sahədə fermerləri maraqlandıran mövzular üzrə ümumilikdə 35 təlim keçirilib.

“Barama istehsalının səmərəli təşkili” ilə bağlı təlim proqramı çərçivəsində 1097 kümçü fermerin iştirakı ilə 36 Dövlət Aqrar İnkişaf Mərkəzində onlayn formada 8 təlim keçirilib.

Salyan, Tərtər, Quba, Şəki Regional Aqrar Elm və İnnovasiya Mərkəzləri tərəfindən keçirilən 16 əyani təlimdə 172 nəfər və Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu tərəfindən keçirilən 3 onlayn təlimdə isə 20 nəfər iştirak edib.

Fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə təşkil olunan təlimlər davam etdirilir.

## Əsas qida məhsullarının kifayət qədər ehtiyatı yığılıb

Azərbaycanda əsas qida məhsullarının kifayət qədər ehtiyatı yaradılıb.

“Trend”in məlumatına görə, bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini Məmməd Abbasbəyli 2020-ci ilin yekunlarına həsr olunmuş brifinq zamanı deyib.

O bildirib ki, İqtisadiyyat Nazirliyi Azərbaycanda əsas ərzaq məhsulları kateqoriyasına uyğun olan bir sıra məhsulların əlavə ehtiyatlarının yaradılması ilə bağlı kifayət qədər geniş iş aparıb.



M.Abbasbəyli əlavə edib ki, istehlak qrupunda 57 çeşid məhsul, eləcə də 51 çeşid tikinti məhsulu üzrə monitorinq aparılır, bu günədək qiymətlərin süni artımı ilə bağlı hər hansı bir pozuntu aşkar edilməyib.

# Xoşbəxtliyin düsturunu tapan şair



**Ömrü doxsanına yetdi... 1931-ci il fevralın 18-də dünyaya göz açdığı Qazax rayonu Poylu qəsəbəsindən başladı həyat yolu. İllər sonra böyük şəhərlər, ölkələr gördü. Amma o balaca qəsəbə heç zaman gözündə kiçilmədi. "Kür qırağında yerləşən kiçik qəsəbədir Poylu... Mənim nəzərimdə isə ora dünyanın mərkəzidir. Tariximizin qədimliyindən xəbər verən bir çox izlər qalıb o yerlərdə", - dedi şair Nəriman Həsənzadə, ilk yurdunu gözəl xatırladı şeirində:**

*Bu dünyanın gözəl vaxtı Poyluda qaldı*
*Göy üzündən ulduz axdı, Poyluda qaldı*
*Bir qız mənə süzgün baxdı, Poyluda qaldı.*
*Taleyimin dalısınca çıxdım Poyludan*
*Beşiyimin görüşünə gəldim sonradan.*

Əslində, Poylulu illəri qəmdən, kədərdən uzaq keçməyib. Atası Əliməmməd dünyadan köçəndə Nəriman Həsənzadənin bir yaşı varmış. Ondan xatirində heç nə qalmayıb. Ana nəfəsinə sığınıb, anasının tək balası, ümidi kimi böyüyüb.

Ayaqyalın, başıaçıq gəzdiyi, dünyanın qayğısını bilmədiyi uşaqlıq çağları bu gün illərin uzaqlığında, könlünün isə başındadır. Ona görə deyib: "Nə qədər çətin vaxtları olsa da, tay-bərabəri yoxdu o çağların".

Poylunu onun gözündə dünyanın mərkəzinə çevirən anası idi. O, gənc yaşından bütün həyatını öz balasına həsr edən mehriban, cəfakeş qadın iki nəfərlik ailənin - özünün və oğlunun həyatının bütün sıxıntılarını, qayğılarını təkbaşına çəkmək üçün çarpışıb. "Bir anam idi, bir də mən. İki yetim kimi başbaşa verib bir damın altında yaşayırdıq". Bu, şair Nəriman Həsənzadənin uşaqlıq illərinin sözlü şəklidir...

İlk şeirini yeddinci sinifdə oxuyanda yazıb. Müəllimi şeirini divar qəzetinə verib və bununla da məktəbin şairi kimi tanınıb. O vaxtdan qəlbinin pünhan duyğularını şeirlərinə köçürməyə başlayıb. Cild-cild kitabların müəllifidir. Neçə-neçə şeiri dillər əzbəridir.

Həyatın ən ağır sınağı əbədi ayrılıqlardır. Nəriman Həsənzadənin həyatı da ayrılıqlardan keçib. Bir yaşında atasını, iyirmi üç yaşında tək ümidini - anasını itirib. Sonralar isə həyat yoldaşı vaxtsız köçüb bu dünyadan. Üzləşdiyi çətinlikləri, həyatdan erkən köçən doğmalarının, dostlarının dərdini, kədərini həssas qəlbində daşıyır, onların xatirələrini sevilən şeirlərində yaşadır şair. Dünya əzəldən belədir. Qəmi, kədəri də var, sevinci, səadəti də. Xoşbəxt olmağın düsturunu tapıb Nəriman Həsənzadə:

*De, nədir səadət həyatda, gülüm,*
*bir könül xoşluğu, bir az təbəssüm.*

- deyib şair.

Sadəliyi, həssaslığı, vətən təəssübkeşliyi, xalqına sevgisi, sədaqəti ilə bu gün bir nümunə, örnəkdir doxsan yaşlı şair Nəriman Həsənzadə. Həyata sevgisi, insanlara sarsılmaz inamı, sözə ehtiramı ilə yaşayıb yaradır...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

### AZƏRBAYCAN

Od ürəkli, od nəfəsli diyarımsan
Ocağına canım qurban, Azərbaycan!
Əzilsən də, əyilməyən vüqarımsan
Bu çağına canım qurban, Azərbaycan!

Savaşlardan alnıaçıq çıxan zaman
Tarixlərə bağışladın neçə qurban.
Hər qonşuda bir parçası əsir qalan
Torpağına canım qurban, Azərbaycan!

Neçə gizli sərvət yatır qucağında,
Neçə ölkə od aparır ocağından.
Azadlığın al rəmzi var bayrağında
Bayrağına canım qurban, Azərbaycan!

Hər uğurun gələcəyə bir yol açır,
Hər dost elə xoş niyyətin işıq saçır.
Hər millətə, hər məzhəbə isti, açıq
Qucağına canım qurban, Azərbaycan!

Başım üstdə məğrur-məğrur dalğalanan
Bayrağına canım qurban, Azərbaycan!
Ruhuma büt, cismim üçün vətən olan
Torpağına canım qurban, Azərbaycan!

### FİKİR ELƏMƏ

Sən fikir eləmə, gözəldir həyat,
Nə qədər mən sağam, fikir eləmə.
Bu gün yanındayam, sabah hardasa,
Demə mən uzağam, fikir eləmə.

Sən fikir eləmə, yeri qar alsa,
Göyü bulud örtüb, dumanlar alsa,
Mən odam-ocağam fikir eləmə.
Yenə yanacağam, fikir eləmə,

Sən fikir eləmə heç vaxt dünyada,
Mən getsəm, sən qalsan, ayağın altda.
Onda da torpağam, fikir eləmə,
Onda da dayağam, fikir eləmə.

### DÜNYA İŞIQDI

Mənim köməyim ol, mən dara düşsəm,
Baxma uzaqlardan, gəl dindir məni.
Hardasa, nabələd yollara düşsəm,
Özün qarşıma çıx, sevindir məni.

Bəzən hıçqırığım ucalır göyə,
İnsanam, mənim də ağrım - acım var.
Mənim, sən verdiyin bir təsəlliyə,
Sən dediyin sözə ehtiyacım var.

Adam var, neyləyim, vicdanı dardı,
Onun insafına qalsaydı əgər,
Mənim ürəyimi çoxdan qırardı,
Adımı hər yerdən çıxartdırardı,

İstəyinə çatsın təki birtəhər.
Sən eşit bunları, sıxılma fəqət,
Arabir sevincim qəm qarışıqdı.
Yüz təqib eləsin qoy məni zülmət,
Sən varsan dünyada, dünya işıqdı.

### ÜRƏYİM ANANI İSTƏYİR, QIZIM...

Ürəyim ananı istəyir, qızım,
Sən yaşa, dünyada qəmsiz-kədərsiz.
Bir səs qulağıma döz deyir, qızım,
Mən dözdüm, yaş ötdü məndən xəbərsiz.

Qaşlarım qaradır, saçlarım ağdır,
Təbiət şəklimi çəkir yenidən.
Hamı bu dünyada qocalacaqdır,
Amma tək qocalmaq dərd verir hərdən.

"Dağlar" deyə-deyə mən dağ aşmışam,
Hanı tale dostum, ürəkdən gülən?!
Dünyada yaşayıb dünyalaşmışam,
Dünyayla düz gəlmir daha mən deyən.

Daddım acısını şirin həyatın,
Hələ bu acıdan doyan olmayıb.
Qızım, qardaşınla sən olmasaydın,
Deyərdim, dünyada anan olmayıb.

Daha yaş artdıqca səbrim azalır,
Yaş asdı... Neyləsin, yaş əyir, qızım,
Qadınsız ata da anasız qalır,
Ürəyim ananı istəyir, qızım...

# Qazaxda yeni tikilən məktəb binalarının sayı artır

**Son illər ölkəmizdə təhsil sahəsinə göstərilən diqqət və qayğı, bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə fondun reallaşdırdığı "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi Qazaxda da uğurlu nəticələr verir.**





Yeri gəlmişkən, qeyd edək ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə hazırlanmış tədbirlər planında Qazax rayonu üzrə 11 məktəb binasının əsaslı təmirinin və ya tikintisinin aparılması nəzərdə tutulmuşdur. Təkcə ötən il Heydər Əliyev Fondu tərəfindən rayonda Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagirdlik Kosalar kənd tam orta məktəbi əsaslı şəkildə yenidən qurulmuş, eləcə də Şahnabad Nəsibova adına Sarıvəlli kənd tam orta məktəbi üçün 220 şagirdlik yeni məktəb binası inşa olunmuş, həmçinin Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənləri üzrə Məktəb-lisey binası sökülərək yenidən tikilmişdir.

Sözügedən dövlət proqramında tikintisi nəzərdə tutulan məktəblərdən biri də düşmənlə sərhəddə yerləşən və şəhid Aydın Məmmədovun adını daşıyan Qaymaqlı kənd tam orta məktəbidir. Tikintisi ötən ilin yanvar ayından başlanılan və noyabrın əvvəlində başa çatdırılan 3 mərtəbəli və 180 yerlik yeni məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Məktəbin sinif otaqları, fənn kabinələri, akt və idman zalları bütün lazım olan avadanlıqlarla təchiz olunmuşdur.

Kənd sakinləri sərhəddə yerləşən Qaymaqlı kəndində bu cür məktəbin inşa olunmasını dövlətin gələcəyimiz olan uşaqlara göstərdiyi diqqət və qayğısı kimi dəyərləndirirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Biz birlikdə güclüyük!

# 50 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılıb

*Əvvəli 1-ci səh.*

Bunun üçün "COVID-19 vaksin randevu" elektron xidmətində vətəndaş ilk olaraq şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil edib "yoxla" düyməsinə basmalıdır. Bundan sonra vətəndaş təqdim olunan siyahıdan peyvənd məntəqəsini, randevu tarixini və saatını seçib, mobil nömrəsini daxil etməlidir. Qeydiyyat başa çatdıqdan sonra daxil edilən mobil nömrəyə növbənin qeydə alınması ilə bağlı mesaj gəlir. Mesajda birinci dozanın vurulacağı tarix, saat və məkan qeyd edilir.

Peyvəndin birinci dozası vurulduqdan 28 gün sonra ikinci dozanın vurulması üçün təkrar qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Çünki ilkin müraciət zamanı artıq ikinci doza üçün də eyni saat aralığına və məkana avtomatik elektron növbə verilir. Vətəndaş peyvəndləmə vaxtını və ya məntəqəni dəyişmək istədikdə yenidən qeydiyyatdan keçməlidir. Təyin olunan vaxtda tibb müəssisəsinə yaxınlaşdıqda vətəndaş qeydiyyatçıya şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

Elektron xidmət vasitəsilə qeydiyyatdan keçməkdə çətinlik çəkən şəxslər ərazi üzrə poliklinikaya zəng edərək qeydiyyatçıya kimliyi barədə məlumat verməlidir. Bu zaman qeydiyyatçı həmin şəxs üçün sözügedən elektron xidmət vasitəsilə onlayn növbənin götürülməsini təmin edir.

"2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq fevralın 8-dən 65 yaşdan yuxarı vətəndaşlar üçün həyata keçirilən vaksinasiya prosesi çərçivəsində respublikamızın bölgələrində TƏBİB-in tabeliyində olan xəstəxanaların həkim kollektivi tərəfindən fiziki məhdudiyyətləri olan şəxslərin evlərində peyvənd edilməsi işi həyata keçirilir. Vaksinasiya prosesi Abşeron, Sumqayıt şəhərləri və ölkəmizin regionlarında həyata keçirilməkdədir.

Onu da qeyd edək ki, artıq Avropa İttifaqı (Aİ) və ÜST-ün Avropa Regional Ofisi Azərbaycanda COVID-19-la bağlı peyvəndləməni dəstəkləmək üçün birlikdə layihə həyata keçirəcəklər. Aİ tərəfindən maliyyələşdirilən və ÜST tərəfindən həyata keçirilən layihə COVID-19-la bağlı peyvəndləmənin bütün mərhələlərini əhatə edəcək və eyni zamanda ölkəmizin immunizasiya sisteminin gücləndirilməsi üçün önəmli proqram rolunu oynayacaq. Layihə COVID-19-la bağlı peyvəndləməyə hazırlıq, peyvəndləmənin həyata keçirilməsi və monitorinqini dəstəkləmək məqsədilə irəli sürülmüş təşəbbüs çərçivəsində ÜST-ün əsas yerli tərəfdaşları olan Səhiyyə Nazirliyi və TƏBİB-i dəstəkləmək üçün həyata keçiriləcək.

Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas qeyd edib ki, bu layihə tərəfdaş ölkələrdə, o cümlədən Azərbaycanda peyvəndləmənin sürətlə aparılmasına yardımçı olacaq: "Biz hamımız peyvəndlərin qapanmalarla yadda qalan ötən ilin yeni ildə ümid və normal həyata qayıdışa çevrilməsinə yardımçı olmasını səbirsizliklə gözləyirik. Biz ötən il fərdi mühafizə vasitələri və tibbi ləvazimatın ölkəyə gətirildiyi və qısa zamanda birgə proqramlarımızı sosial-iqtisadi dirçəlişə dəstəyə yönləndirdiyimiz əməkdaşlığın davamı kimi "Team Europe" təşəbbüsü çərçivəsində, ÜST-lə birgə və tərəfdaşlarımızla həmrəyliklə çalışmaqdan qürur hissi keçiririk".



TƏBİB-in Xəstəliklərin Profilaktikası və Kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva məlumat verib ki, yanvar ayından başlayaraq Azərbaycanda COVID-19-a qarşı peyvəndləmə başlayıb. Multiplatformalı yanaşmanı nəzərə alaraq Avropa İttifaqı və ÜST ilə kommunikasiya, peyvəndlərin logistikası istiqamətində həyata keçirilən əməkdaşlıq mühüm əhəmiyyətə malikdir.

ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancı isə bildirib ki, peyvəndlər pandemiyaya qarşı mübarizənin ön cəbhəsində mübarizə aparanlara və xəstəliyin ağır nəticələrinin qorxusu altında yaşamağa məcbur olan yüksək risk qruplarında olan insanlara ümid və qoruma vəd edir. Bu səxavətli dəstək sayəsində ÜST peyvəndlərin ən çox ehtiyacı olanlara ən qısa zamanda və daha effektiv şəkildə çatdırılmasını təmin etmək üçün Azərbaycan hökuməti ilə əməkdaşlığını gücləndirə bilər.

Ayrılmış vəsait əvvəlcə peyvəndləməyə hazırlıq və peyvəndlərin gətirilməsinin ilk mərhələsini dəstəkləyəcək, strateji sahələrdəki ehtiyacların qarşılanmasına yönəldiləcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*




# Ölkəmizdə tətbiq edilən "CoronoVAC" vaksininin effektivliyi 92 faizdir

**Türkiyədə aparılan tədqiqatların nəticələrinə görə, yeni növ koronavirusa (COVID-19) qarşı tətbiq edilən Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksininin effektivliyi 92 faizdir.**

Azərbaycanda istifadə edilən bu peyvənd COVID-19-a qarşı anticisimlərin və immun hüceyrələrinin formalaşmasına kömək edir. Mütəxəssislər bildirirlər ki, hazırda Türkiyə ilə bərabər, dünyanın bir neçə ölkəsində vaksinin effektivliyi yoxlanılıb və fərqli nəticələr ortaya çıxıb.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Gömrük Hospitalının həkim-infeksionisti Telman Aytayev deyib: "Dünyada bu peyvəndi tətbiq edən üç ölkə var. Onlardan gələn nəticələr fərqlidir. Braziliyadan gələn nəticələr 50-50,8, İndoneziyadan gələn nəticələr isə 60-70 faiz arasındadır. Türkiyədən gələn nəticələrə görə vaksinin qoruyuculuğu 90 faizdən yüksəkdir".

Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyindən (TƏBİB) verilən məlumata görə, Azərbaycanda istifadə edilən vaksinin yaratdığı immunitetin minimum müddəti bir ildir. Peyvəndin maksimum müddəti isə hələ təsdiqlənməyib. Tədqiqatlar zamanı peyvəndin təhlükəli təsirləri aşkarlanmayıb.

Hazırda aparılan araşdırmalar ikinci mərhələni əhatə edir və ölkəyə gətirilən vaksinlərlə əlaqədar göstəricilər müsbət dəyərləndirilir. Mütəxəssislər onu da qeyd edirlər ki, vaksinlərlə bərabər hər kəs "üç qızıl qayda"ya - maska taxmaq, əl gigiyenası və sosial məsafənin gözlənilməsinə ciddi şəkildə əməl etməlidir.

# *Həkim-infeksionist:* "İnfeksiyaya yoluxmamaq üçün peyvənd vurdurmaq ən etibarlı vasitədir"

**Yanvarın 18-dən ölkəmizdə yeni növ koronavirusa (COVID-19) qarşı vaksinasiya prosesi aparılır. Həmin proses ilkin olaraq səhiyyə işçiləri arasında başlanılıb. Kliniki Tibbi Mərkəzin həkim və tibb işçiləri də hamılıqla peyvənd olunublar.**

Klinikanın həkim-infeksionisti Laçın Əliquliyeva peyvəndin birinci dozasını qəbul edib, fevralın 20-də isə ikinci dozanı vurduracaq.

"Həkimlik təcrübəmdə şiddətli ağrı-acı ilə üzləşən, həyatla ölüm arasında çarpışan çox xəstə görmüşəm. Amma bəlkə də arxası qatda gözlərini tavana dirəyib imdad diləyən COVID-19-a yoluxmuş ağır xəstənin çəkdiyi əzab və ağrılar onların ən dözülməzi və ən məşəqqətlisidir. Təəssüf ki, nəfəs çətinliyi ilə üzləşən belə xəstələrə kömək etmək biz həkimlərin də imkanı xaricində olur", - deyə həkim-infeksionist söhbət açır.

Onun dediyinə görə, belə kritik hallarda ümid yalnız xəstənin orqanizminin gücünə və Allahın mərhəmətinə qalır: "Həkim həmişə xəstənin ümid yeridir və şübhəsiz ki, biz onun yaşaması naminə mümkün olan hər şeyi etməyə çalışırıq. Lakin COVID elə dəhşətli bəladır ki, onun ağır formasını keçirən xəstəyə həkim yardımı, dava-dərman da kömək etmir. Ötən ilin yazından indiyədək həmin virus infeksiyasına yoluxan çoxlu xəstə görmüşəm. Ötən bir il ərzində hər gün neçə-neçə COVID-li xəstəyə yardım göstərsəm, onlarla təmasda olsam da, şükür ki, özümü ona yoluxmaqdan qorudum. Lakin doğmalarımı qoruya bilmədim. Bacım Solmaz, qardaşım qızı Aytac, qardaşım oğlu Məmmədxan da koronavirusa yoluxdular. Bir müddət ev şəraitində onlara qulluq göstərsəm də, xəstəliyin şiddətləndiyini görüb bacımı və Aytacı işlədiyim klinikaya yerləşdirdik. Bacım 9, qardaşım qızı isə 10 gündən artıq orta ağır vəziyyətdə xəstəxana şəraitində, qardaşım oğlu isə yüngül simptomlarla ev şəraitində müalicə olunaraq sağaldılar. Bu elə bir təhlükəli infeksiyadır ki, doğma-yad tanımır, hər kəsin yaxasından yapışa bilər. Belə olan şəraitdə çıxış yolu nədir? Biz həkimlərin tez-tez işlətdiyimiz bir söz var. Həmişə deyirik ki, ən yaxşı müalicə profilaktikadır. İndiki halda COVID-19-un profilaktikası da ona qarşı tətbiq edilən peyvənddir. Peyvənd vurdur və xəstəlikdən uzaq ol!"

Həkim-infeksionist peyvənd vurdurmaqdan çəkinənlərə müraciət edərək deyib: "Dünyaya yeni doğulan körpəyə qısa bir vaxt ərzində bir neçə peyvənd vurulur. Necə ki, uşaqlara difteriya, göyöskürək, tetanus, pnevmokok, qızılca, parotit və məxmərəyə qarşı peyvənd vurulur, koronavirusa qarşı tətbiq edilən Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksini də həmin inaktiv peyvəndlərdən biridir. İndiyə qədər peyvənd kimə hansı mənfi təsir göstərib? Bir şey ki, qoruyucu, xəstəlikdən mühafizə edən vasitə kimi tətbiq edilir. Ondan çəkinməyin, yaxud etdirib-etdirməmək barədə təlaşa düşməyin nə mənası var? Peyvənd xəstəliyə yoluxmaqdan xilas yoludur, infeksiyaya yoluxma zamanı isə xəstəliyi yüngül keçirməyə kömək edir. Yaşamaq eşqi, həyat enerjisi olan heç kəs onu vurduqmaqdan qorxmamalıdır".

# COVID-19 infeksiyası uşaqlarda indiyədək nadir hallarda ağırlaşmaya səbəb olub

COVID-19 infeksiyası uşaqlarda indiyədək nadir hallarda ağırlaşmaya səbəb olub. Pandemiya başladığı vaxtdan bəri uşaqlarda ağırlıq dərəcəsi və tezliyi baxımından böyüklərə nisbətən daha az təsirlənir və bu halların 2 faizdən azını təşkil edir.

Bir qrup tibb aliminin "Pediatriks" jurnalında dərc olunan "Uşaqlarda COVID-19 və ailələrdə infeksiyanın dinamikası" üzrə tədqiqat işinin nəticələrinə əsasən, digər viruslu hava-damcı yolu ilə ötürülən yoluxucu xəstəliklərdən fərqli olaraq, uşaqlar SARS-CoV-2 virusunun ötürülməsinin əsas vektoru sayılmır, onlar, adətən, ailə üzvlərindən yoluxa bilirlər. Uşaqdan uşağa yoluxma və ya uşaqdan böyüyə yoluxma halları haqqında heç bir sübut yoxdur.

Bu barədə AZƏRTAC-a Sağlamlığa Xidmət İctimai birliyinin icraçı direktoru, ictimai səhiyyə üzrə ekspert Pərvanə Vəliyeva deyib.

Ekspert bildirib ki, digər bir araşdırma uşaqların asimptomatik qalması, simptom öncəsi bir mərhələ keçdiyini və ya qızdırma, öskürək kimi simptomlarla müşayiət olunduğunu bildirir. ABŞ-da pediatrik koronavirus hallarının təxminən üçdəbiri 15 ilə 17 yaş arası uşaqlarda meydana gəlib. Həmin tədqiqatda qeyd olunur ki, şiddətli kəskin tənəffüs çatışmazlığı sindromu SARS-CoV-2 infeksiyası olan anaların yeni doğulmuşlarında şaquli ötürülmə riski sadəcə 2 faizdir.

COVID-19 virusunun uşaqlara təsiri az olsa da, vərəm onlardan yan keçmir. Yeni növ koronavirus tüğyan etməyə başlamadan öncə dünyada ən çox insan ölümünə səbəb olan yoluxucu xəstəlik vərəm idi. Hər il dünyada 1 milyondan artıq uşaq vərəmlə xəstələnir. Ümumdünya Səhiyyə Təşkilatının vərəmlə bağlı 2020-ci il hesabatına əsasən, 2019-cu ildə dünyada 1.2 milyon 15 yaşadək uşaq vərəmlə xəstələnib.

Vərəm qarşısı alına bilən və müalicə edilə bilən xəstəlik olsa da, dünya miqyasında uşaq ölümlərinin ilk səbəblərindən biridir. Vərəm ən çox gənc və həssas insanlara təsir edir: Uşaqlarda vərəmdən ölümlərin 80 faizini beş yaşdan kiçik uşaqlar arasında baş verir. Buna görə uşaq vərəminə son qoymaq 2030 Davamlı İnkişaf Məqsədlərinin mərkəzində durur: "Yeni doğulmuş körpələrin və beş yaşınadək uşaqların ölümlərinə son qoymaq".

Cəmiyyətdə ictimai səhiyyənin uşaq sağlamlığına, onların sağ qalmasına və inkişafına təsirinin böyük olduğu dərk olunmalıdır. Dünya əhalisinin üçdəbiri vərəmə yoluxsa da, hər kəs vərəmlə xəstələnmir. Uşaqlar vərəmə yoluxduğu zaman daha tez xəstələnə bilir və simptomlar daha sürətli özünü göstərir, çünki onların immuniteti böyüklərə nisbətən zəif olur. Adətən, uşaqlar vərəm xəstəsi ilə kontaktdan yoluxa bilirlər, bu səbəbdən vərəm kontaktı (yaxın ailə üzvü, qohumları və digər təmasları) olan uşaqlarda profilaktik müalicə aparılmalıdır.

Vərəm əleyhinə yeganə peyvənd, 100 yaşı olan BCG vaksini yeni doğulmuş körpələrə vurulur və erkən uşaqlıq dövründə ən ağır vərəm növlərindən qoruyur, lakin yeniyetməlik dövründə bu peyvənd təsirini itirir. COVID-19 peyvəndlərinin sürətli inkişaf təcrübəsi öyrənilərək vərəm əleyhinə yeni peyvəndin də hazırlanması beynəlxalq və milli vərəm təşkilatları tərəfindən arzu olunur.

COVID-19 peyvəndinin hazırlanması təcrübəsində olduğu kimi, vərəm peyvəndləri üçün maliyyənin öncədən toplanılması və vərəm əleyhinə yeni peyvəndi hazırlamaq üçün yeni elm və tədqiqat üsullarının tətbiq edilməsi təklif olunur.

Uşaqlarda vərəmin diaqnostikası və müalicəsi xüsusi yanaşma tələb etdiyi üçün uşaqlara uyğun vərəm əleyhinə dərmanların mövcud olmasına baxmayaraq, dünya miqyasında vərəmdən ölən uşaqların 96 faizindən çoxu heç vaxt müalicə almır. Məktəbdə ayrı-seçkilik, stiqma bu problemi ikiqat artıran faktorlardandır.

# Bölgələrdə fiziki məhdudiyyətli şəxslərin vaksinasiyası evlərində aparılır

"2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq, fevralın 8-dən 65 yaşdan yuxarı vətəndaşlar üçün həyata keçirilən vaksinasiya prosesi çərçivəsində respublikamızın bölgələrində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan xəstəxanaların həkim kollektivləri tərəfindən fiziki məhdudiyyətləri olan şəxslərin evlərində peyvənd edilməsi işi həyata keçirilir".

Bu barədə AZƏRTAC-a TƏBİB-in Mətbuat xidmətindən bildirilib.

Məlumata görə, vaksinasiya prosesi Abşeron rayonunda, Sumqayıt şəhərində, ölkəmizin digər regionlarında TƏBİB tərəfindən həyata keçirilir.



Ermənistan silahlı qüvvələri tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndinin işğal edilməsindən və dinc sakinlərə qarşı həyata keçirilən soyqırımı cinayətindən 29 il keçir. Erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırımı törədilib.

# Qaradağlı faciəsinin 29-cu ildönümü qeyd edilib

İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Ümumilikdə, əsir götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə əsirlikdən azad edilib. Əsir götürülənlərdən 10 nəfəri qadın, 2 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadın olmaqla, 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmləri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəbyaşlı uşaq olub. Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800-ə yaxın sakini məcburi köçkün düşüb.

AZƏRTAC xəbər verir ki, Qaradağlı faciəsinin ildönümü münasibətilə Beyləqan rayonu ərazisində məskunlaşan xocavəndli məcburi köçkünlər "Yeni Qaradağlı" qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Qaradağlı kəndinin sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidlərin ailə üzvləri, keçmiş döyüşçülər abidə kompleksi önünə gül-çiçək dəstələri düzüb, şəhidlərin ruhuna ehtiramlarını bildiriblər. Anım mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov iştirak ediblər.

Qaradağlı soyqırımı şahidləri AZƏRTAC-la söhbətində 29 il əvvəl baş verən qanlı hadisələrdən danışıblar. Kənd sakini Seyyur Nağıyev həmin günləri belə xatırlayır: "1992-ci il fevral ayında möhkəm döyüşlər gedirdi. Qaradağlı kəndi mühasirədə idi. Kənddə müdafiə dəstəsi yaratmışdıq. Qeyri-bərabər döyüşlərdə kəndin uşaqlı-qadınlı, cavanlı-qocalı bütün sakinləri qəhrəmanlıqla iştirak edirdilər. Gülləmiz qurtardığı üçün döyüşü davam etdirə bilmədik. Erməni dəstələri kəndə girdilər. Bizi əsir götürüb Xankəndi istiqamətinə aparan erməni silahlıları Cəmiyyət kəndində Elmidarı maşından düşürüb, qadınların, uşaqların gözü qabağında öldürdülər. Erməni silahlıları yolboyu əsirləri düşürüb öldürürdülər. Bizi Xankəndində əsir saxlayanda bütün günü zülm, işgəncə verirdilər. Hər gün gəlib döyürdülər. Əsirlikdə olduğumuzun 40-cı günü idi, erməni nəzarətçi gələndə ayağa durmadım. Buna görə çənəmdən təpiklə necə vurdusa, çənəm qırıldı. Hələ ondan qabaq "Bəylik bağı"nda ermənilər çənəmdən güllə ilə vurmuşdular. Mənim yanımda İmran kişi var idi. Onu da mədəsindən elə vurdular ki, 7 gündən sonra öldü. Meyiti də 3-4 gün qaldı yanımızda".

## Nobel mükafatı laureatı 99 yaşında vəfat etdi



ABŞ-da məşhur həkim-kardioloq, Nobel sülh mükafatı laureatı Bernard Laun 99 yaşında vəfat etmişdir. Bu barədə "Boston Globe" qəzeti xəbər verir.

Qəzet yazır ki, Laun uzun müddət ürək çatışmazlığından əziyyət çəkirdi. O, Bostondakı evində gözlərini əbədi yummuşdur.

Laun ictimai fəal idi. O, nüvə silahının yayılmasına və iqlim dəyişikliyinə qarşı çıxırdı. 1960-cı ildə "Həkimlər sosial məsuliyyət uğrunda" şirkətinin əsasını qoymuş və 1980-ci illərdə "Həkimlər nüvə müharibəsinin qarşısının alınması uğrunda" təşkilatının həmtəsisçisi olmuşdur.

1985-ci ildə, ABŞ-la SSRİ arasında soyuq müharibənin qızğın vaxtında Laun nüvə müharibəsinin fəsadları barədə məlumatlılığı artırdığına görə Nobel sülh mükafatına layiq görülmüşdür.

# Beynəlxalq aləm

## ABŞ-da sərt qış insan tələfatına səbəb oldu



ABŞ-ı bürümüş qeyri-adi şiddətli soyuq mənzil infrastrukturunu kritik vəziyyətə salmışdır. Bir neçə milyon ev təsərrüfatı işıqsız qalmış, soyuq hava üzündən azı 21 nəfər həlak olmuşdur. Dağıdıcı qış tornadoları qeydə alınmışdır. Bəzi bölgələrdə havaların soyuq keçməsi üzündən koronavirusa qarşı peyvəndləmə prosesi yavaşımışdır. Prezident Co Bayden ekstremal qış havası ilə əlaqədar zərərçəkən ştatların, o cümlədən Texas, Luiziana və Kentukkinin qubernatorları ilə müşavirə keçirmişdir. Müşavirədə qeyd olunmuşdur ki, ABŞ administrasiyası insanların yaranmış vəziyyətdən çıxması üçün əldə olan bütün ehtiyatlardan istifadə edəcək.

Şaxtanın xüsusilə sərt olduğu Texas ştatının hakimiyyət orqanları buz yağışları yağmasının mümkünlüyü barədə xəbərdarlıq etmişdir. Hazırda ABŞ ərazisinin təxminən 70 faizi qarla örtülüdür. Bəzi yerlərdə minus temperatur yüz il əvvəlki rekordu vurub keçmişdir.

## Suriyadan Türkiyəyə qanunsuz keçmək istəyən rusiyalılar yaxalandı

Suriyadan Türkiyəyə qanunsuz keçməyə cəhd edən beş rusiyalı həbs olunmuşdur. Türkiyə Milli Müdafiə Nazirliyinin məlumatına görə, hadisə Hatay vilayətinin Narlıca rayonunda baş vermişdir.

Rusiyalılarla birlikdə bir Liviya vətəndaşının da saxlanıldığı bildirilir. Rusiyalı qadınlardan biri İŞİD terrorçu qruplaşması ilə əlaqəli olduğu üçün axtarışa verilmişdi.

Ötən ayın axırlarında xəbər verilmişdi ki, 2020-ci il dekabrın 31-də Türkiyədə İŞİD-in üzvləri həbs olunmuşdur. Onların arasında rusiyalılar da var idi. Ümumilikdə, Suriya ilə sərhəddə Türkiyəyə qanunsuz keçməyə çalışan 12 nəfər tutulmuşdu.

## Pentaqon Rusiyanı NATO müttəfiqləri üçün təhlükə sayır

Rusiya bütün NATO müttəfiqləri, o cümlədən ABŞ üçün təhlükədir. TASS Agentliyi xəbər verir ki, bu bəyanatla Pentaqonun yüksəkvəzifəli nümayəndəsi çıxış etmişdir.

Pentaqonun təmsilçisi qeyd etmişdir ki, Moskva məqsədlərinə çatmaq üçün hərbi güc tətbiq edir. Onun dediyinə görə, Rusiyanı aqressiv hərəkətlərinə görə məsuliyyətə cəlb etmək lazımdır. Eyni zamanda məmur qeyd etmişdir ki, ABŞ tərəfi Moskva ilə qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq etmək niyyətindədir.

"Rusiya təhlükəsi" mövzusu bu həftə Pentaqonun rəhbəri Lloyd Ostinin iştirakı ilə NATO müdafiə nazirlərinin videokonfransında müzakirə ediləcək.

# Ermənistanda müxalifət vətəndaş müharibəsinə hazırlaşır

### Keçmiş hərbi xuntanın revanş cəhdi vəziyyəti daha da gərginləşdirir

Əvvəli 1-ci səh.

"Aprel müharibəsi erməni tərəfinin vədlərindən sonra dayandırıldı. Verilmiş vədlərin 2016-cı ilin yayında yerinə yetirilməsinə dair müəyyən qrafik də nəzərdə tutulmuşdu. Lakin həmin ilin yayında "Sasna tsrer" qiyamı baş verdi və Serj Sarkisyan bundan istifadə edərək verdiyi vədlərin yerinə yetirilməsini 2017-ci ilin aprelinə qədər, sonra isə hakimiyyətdən gedənə qədər uzatdı. Bu adam çoxsaylı vədlər verərək Ermənistanın üzərinə belə yük qoydu, sonra postunu tərk etdi və indi çıxıb deyir ki, "mən hansısa kağızı imzalamağa, hansısa addımı atmağa hazır idim". Bununla belə, mən dəqiq bəyan edirəm ki, onun verdiyi vədlər, yaratdığı yalan üzündən biz ciddi problemlərlə qarşılaşdıq", - deyə Qriqoryan bildirib.

Ermənistanda müxalifətin iqtidar əleyhinə təşkil etdiyi mitinqlərə cavab olaraq baş nazir Nikol Paşinyanın tərəfdarları da aksiya keçirirlər. Belə aksiyalardan biri Gümrüdə təşkil edilib. Lakin bu dəfəki mitinqdə Paşinyanın fəal dəstəkçiləri gözə dəyməyiblər. Deputat Naira Zohrabyan müqayisə üçün 2018-ci ildə təşkil edilən mitinqlə son aksiyanın fotolarını paylaşaraq deyib ki, hər ikisi Gümrüdə Paşinyanın tərəfdarlarının keçirdiyi aksiya olsa da, reallıq göz önündədir.

Erməni KİV-ində aksiyaya qoşulan Paşinyanın azsaylı tərəfdarlarının Yerevandan gətirilməsi barədə məlumatlar da dolaşır. Jurnalistlər baş nazirin saxta dəstəkçilərinin Gümrüdə toplanması üçün müəyyən administrativ tədbirlərdən istifadə edilməsinə dair faktlar əldə ediblər.

Yayılan fotolardan birində öndə gedən şəxsin başqa bir rayondan olan Suren Torosyan adlı məmur olduğu və işçiləri ilə yanaşı addımladığı qeyd edilib. Bildirilib ki, xalqın Paşinyanı dəstəkləməsi ilə bağlı görüntü yaratmaq üçün digər ərazilərdə yaşayan vətəndaşlar da zorla Gümrüyə gətirilib.

"Lragir" qəzeti yazır ki, ölkədə hakimiyyət özbaşınalığı və perspektivin olmaması səbəbindən gənclərin qruplar halında əsasən Rusiya istiqamətində miqrasiya etmələri və keçmiş Sovet İttifaqının süqutundan sonra Ermənistanın 16-30 yaş arasındakı vətəndaşlarının bir milyonundan çoxunun və bununla da öz gələcəyini itirdiyi qeyd olunur: "Ermənistan hökuməti əhalinin, xüsusilə gənclərin ölkəni birdəfəlik tərk edərək digər ölkələrə üz tutmasından heç bir narahatlıq keçirmir, əksinə, miqrasiya edən gənclərlə narazı elektoratın və gələcək potensial inqilabçı-gənclərin sayının azalmasına və bu yolla hakimiyyətdə qalmaqda davam etməyə ümid edir".

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən daha da mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Mərkəzi Bankı
### *açıq tender elan edir*

Azərbaycan Respublikası Mərkəzi Bankı informasiya təhlükəsizliyi lisenziyalarının satın alınması ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru **30 mart 2021-ci il saat 15:00-da** Dövlət satınalmalarının vahid internet Portalında **(https://etender.gov.az/)** (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlı şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 12 may 2021-ci ilədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (Əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **29 mart 2021-ci il saat 18:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **12 mart 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Lisenziyalar satınalma müqaviləsi imzalandığı gündən 20 (iyirmi) iş günü müddətində təqdim edilməlidir.

Qiymətləndirmə meyarı: qiymət amili.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***



## Hacıqabul Suvarma Sistemləri İdarəsi 2021-ci ildə alınacaq mal- material, ehtiyat hissələri, iş və xidmətlərin satın alınması məqsədilə
### *açıq tender elan edir*

Tender 7(yeddi) LOT üzrə keçiriləcək.
**LOT- 1** Təmir işləri üçün materialların satın alınması.
**LOT- 2** Torpaqqazan mexanizimlər üçün ehtiyat hissələrinin satın alınması.
**LOT- 3** Nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması.
**LOT- 4** Hidravlik və surtkü yağlarının satın alınması.
**LOT-5** Su nasos stansiyalarında nasos və elektrik avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması.
**LOT- 6** Suvarma kanallarının lildən təmizləmə işlərinin satın alınması.
**LOT-7** Çay (Pirsaatçay) məcralarının tənzimlənməsi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz. Əlaqələndirici şəxs: Məmmədov İlham Calal oğlu (iqtisadçı)

Ünvan: Hacıqabul şəhəri, R.Behbudov, 14

e-mail: **haciqabulssi@mail.ru** Tel: 021-20-4-37-29

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər LOT üzrə 80 (səksən) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Hacıqabul Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ13CTRE00000000000002353301**
**VÖEN: 8100058371**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: BIK CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:
*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*- Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*- İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **12.03.2021-ci il saat 17:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər. Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **29.03.2021-ci il saat 18:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **LOT-1 üzrə 30.03.2021-ci il saat 10:00-da, LOT-2 üzrə 30.03.2021-ci il saat 11:00-da, LOT-3 üzrə 30.03.2021-ci il saat 12:00-da, LOT-4 üzrə 30.03.2021-ci il saat 14:00-da, LOT-5 üzrə 30.03.2021-ci il saat 15:00-da, LOT-6 üzrə 30.03.2021-ci il saat 16:00-da, LOT-7 üzrə 30.03.2021-ci il saat 17:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kartriclərin satın alınması üzrə
### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 20 (iyirmi) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri **(Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir);***
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.02.2021-ci il tarixindən sonra alınan arayış qəbul ediləcəkdir.***
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti **(2019 və ya 2020-ci illər üzrə);***
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.02.2021-ci il tarixindən sonra alınan arayış qəbul ediləcəkdir.***
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. **Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
*10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
*13. Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 15.03.2021-ci il saat 15:00-a qədər və tender təklifini 30.03.2021-ci il saat 15:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 31.03.2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
### təkliflər sorğusu elan edir

**Azərbaycan Respublikası Maliyyə Nazirliyinin çağrı mərkəzi və ofis telefoniyası üçün eyni anda çoxsaylı şəbəkədaxili və şəbəkəxarici zənglərin edilməsi üçün zəruri bağlantı imkanının (SIP trunk) yaradılması.**

Maraqlanan təşkilatlar nurlan.soltanov@maliyye.gov.az ünvanı və 404-34-43 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 24.02.2021-ci il saat 16:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, AZ 1022, S. Vurğun küçəsi, 135.**

***Satınalma komissiyası***



## "Azərsu" ASC daxili vəsaiti hesabına "Azərsu" ASC-nin xidməti ərazilərində oxumaların səmərəli təşkili üçün nəzarətçilərin istifadəsində olan mobil əl terminalların və əl printerlərin təmiri işlərinin satın alınması məqsədilə
### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47-67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini **25 fevral 2021-ci il saat 15:00-dan** gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanında **26 fevral 2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankı
### *açıq tender elan edir*

Azərbaycan Respublikası Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

**LOT 1:** Azərbaycan Respublikasının Mərkəzi Bankında istismar olunan əsginasçeşidləyici sistemlərin fəaliyyətini təmin etmək üçün qablaşdırma materiallarının satın alınması;
**LOT 2:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə saxlancının fəaliyyətini təmin etmək üçün mal-materialların satın alınması;
**LOT 3:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün etiket və ribbonların satın alınması;
**LOT 4:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması;
**LOT 5:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək məqsədilə elektrikli yükqaldıranlar üçün akkumulyatorların satın alınması.

Tender prosedurları 30 mart 2021-ci il saat 15:00-da dövlət satınalmalarının vahid internet Portalında **(https://etender.gov.az/)** (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlı şəxslər tenderdə iştirak etmək üçün "ASAN Ödəniş" sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına LOT 1 üzrə 100 (bir yüz) manat, LOT 2, LOT 3, LOT 4 və LOT 5 üzrə isə hər biri üçün 50 (əlli) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderlərdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 12 may 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçıların son 2 (iki) il ərzində müvafiq malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar (adı, ünvanı və əlaqə telefonu);*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tenderlər üzrə təklif və təklifin bank təminatlarını **29 mart 2021-ci il saat 18:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **12 mart 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən 90 (doxsan) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları: qiymət və keyfiyyət amili (funksional yararlılıq).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurlarının hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"
### *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**
*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**
*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## BİLDİRİŞ

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən icbari tibbi sığortaya, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və onun fəaliyyətinə aid məlumatların mediada monitorinqi, toplanılması, emalı, təhlili və arxivləşdirilməsi xidmətlərinin satın alınması üçün 27 yanvar 2021-ci il tarixdə elan edilmiş açıq tender üzrə malgöndərənlərin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi 26 fevral 2021-ci il saat 17:00-dək, tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə 09 mart 2021-ci il saat 17:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 10 mart 2021-ci il saat 17:00-da keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC
## metropolitenin müxtəlif obyektlərində yaşıllaşdırma işlərinin satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **"Bakı Metropoliteni" QSC-nin müxtəlif obyektlərində yaşıllaşdırma işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 150 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri

**12 mart 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini

**29 mart 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **30 mart 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Selection of International Individual Consultant on Veterinary Laboratories' Compliance with the Accreditation Standards and Strengthening of Animal Health and Veterinary Systems Reference No. AZ-AACD-218368-CS-INDV-A1/CS-15/AV**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:
(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
(ii) *Component B - Agri-food value chain development. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
(iii) *Component C - Financial services to agribusiness.*
(iv) *Component D - Project Management.*

**The general objective**

The objective of the assignment is to facilitate AFSA (Azerbaijan Food Safety Agency) become capable to effectively perform the analytical part of official control.

The specific objective is to strengthen animal health and veterinary systems of AFSI.

Brief description of scope of works are as follows:
(i) Conduct a **Diagnostic Analysis** of the existing laboratories in the field of veterinary/animal health and readiness for international accreditation (Assess the veterinary laboratories in terms of compliance with the accreditation standard (ISO/IEC 17025); laboratories staff's knowledge and skills; Technical support for veterinary laboratories for international accreditation (DAKK) and etc.)
(ii) **Capacity building:** identification of the training needs and training plan for capacity building of the laboratory staff in the area of vet/animal health the vet laboratories;

**Duration of the assignment:**
It is estimated that a total input of forty (40) work/days will be required, deployed in several missions on site during the period March - June 2021. The first mission to Azerbaijan is scheduled for March 2021.
Consultant will work closely with the staff of AFSA, including AFSI and central and regional laboratories. Assignment will be mainly Baku-based.

**The shortlisting criteria are:**
- M.Sc. or preferably Ph.D Degree in Veterinary Medicine or a laboratory field (e.g. virology, microbiology etc.);
- Track record of at least 5 years of professional and/or academic experience in accredited veterinary laboratory and/or administration of accredited veterinary laboratories;
- Excellent command of English (written and spoken), IT literacy.
- Previous experience with World Bank-funded projects and understanding of its requirements is preferable
- Documented track record in drafting strategic documents;
- Good inter-personal communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the *World Bank's Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014 ("Consultant Guidelines"),* setting forth the World Bank's policy on conflict of interests.
A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by March 04, 2021.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**1965, Z.Bunyadov avenue, Chinar Park Biznes Center, AZ1075, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail: anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com;nargiz.acip@gmail.com**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF)
## Sanitariya-gigiyena (Təmizlik) xidmətlərinin satın alınması üzrə
### *açıq tender elan edir*

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və e.tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. e.tenderdə iştirak etmək istəyən iddiaçılar 500 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu
Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 10 mart 2021-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 18 mart 2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 19 mart 2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

e.tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu
## "BMW 740" model avtonəqliyyat vasitəsinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması üçün
### *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: (+99412) 498 77 53, faks: (+99412) 565 87 55, əlaqələndirici şəxslər: Əli Rzayev-daxili: 1005, hüquqi məsələlər üzrə Kəmalə Rəhimova-daxili: 8023) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak üçün sənədlər 25 fevral 2021-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 26 fevral 2021-ci il saat 11:00-da AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5211
Sifariş 274
Qiyməti 40 qəpik